Günəş Şərqdən doğur!

№ 13 (5294), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

23 yanvar 2021-ci il (şənbə)




## 280 nəfər yoluxub, 11 nəfər vəfat edib

Azərbaycanda son sutkada 632 nəfər koronavirusdan sağalıb

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 280 yeni yoluxma faktı qeydə alınıb, 632 nəfər müalicə olunaraq sağalıb.

(Səh.8)

## Azərbaycan Ordusunun şəhid zabitinin nəşi tapıldı



**Azərbaycan Ordusunun şəhid olan hərbi qulluqçusunun nəşi tapılıb.**

Bir müddətdir itkin düşən leytenant Şükürlü Elvin Azad oğlunun nəşi doğulduğu Cəlilabad rayonunun Şiləvəngə kəndinə gətirilir.

(Səh.4)

Günün içindən...



## XİN Avropa Parlamentinin qətnaməsini şərh edib

Azərbaycan Prezidenti status məsələsini tarixin zibilliyinə yollayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Avropa Parlamentinin qəbul etdiyi qətnamə ilə bağlı açıqlama verib.

(səh.9)

## "YAŞAT" Fonduna toplanan vəsait 27 milyon manatı ötüb




(səh.6)

# Təhsil naziri tarix açıqladı



## Fevralın 1-dən bütün təhsil müəssisələrində əyani tədris mərhələli şəkildə bərpa olunacaq

**Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair brifinq keçirilib.**

Brifinqdə çıxış edən Təhsil naziri Emin Əmrullayev bildirib ki, fevralın 1-dən bütün təhsil müəssisələrində əyani tədris mərhələli şəkildə bərpa olunacaq. Nazir deyib ki, təhsil müəssisələrində əyani tədrisin bərpası TN-in təkbaşına verəcəyi qərar deyil...

(səh.3)

## Şuşa Paşinyanın qəddini əyib

Baş nazir xalqına səslənir ki, daha bu şəhərdən az danışın

(səh.5)



## "Ali təhsil haqqında" qanunun ilkin variantı hazırlanacaq

(səh.4)

## "Minsk qrupuna ehtiyacımız yoxdur"

Elxan Şahinoğlu: "Artıq ermənilər saman çöpündən də yapışmağa hazırdırlar ki, gedişatı dəyişə bilsinlər"

(səh.6)

## Ermənistandan ən böyük köç indi başlayacaq

Çünki ölkənin artıq heç bir iqtisadi, siyasi perspektivi mövcud deyil

(səh.9)

## Qarabağa pullar gələcək

"Ziraat Banka"sı Şuşada filial açmaq üçün münasib yer axtarır

(səh.12)



## "Hər kəsin cibində vəsiyyətini yazdığı kağız var idi"

"Noyabrın 8-i xəbər gəldi ki, ciddi döyüşlər başlayacaq"

(səh.8)

## Əmrah illərin döyüşçüsü kimi savaşıb

Düşmənin səngərinə qaçaraq qumbaranı partladıb, 10 ermənini gəbərdib



(səh.9)

# XİN Avropa Parlamentinin qətnaməsini şərh edib

## Azərbaycan Prezidenti status məsələsini tarixin zibilliyinə yollayıb



**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Avropa Parlamentinin qəbul etdiyi qətnamə ilə bağlı açıqlama verib.**

L. Abdullayeva bildirib ki, bu il yanvar 20-də Avropa Parlamentinin (AP) qəbul etdiyi illik doktrinal və hüquqi təsirə malik Ümumi Xarici və Təhlükəsizlik Siyasətinin tətbiqi barədə qətnaməsi və 2021-ci il üçün yol xəritəsi sayılan bu hesabat sənədində növbəti dəfə Şərq Tərəfdaşlığı ölkələrinin (o cümlədən Azərbaycanın) beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə Aİ-nin dəstəyi birmənalı şəkildə əks olunub:

"Bəzi ermənipərəst dairələrinin səylərinə baxmayaraq, 44 günlük Vətən müharibəsindən sonra Avropa İttifaqının Azərbaycanın və digər Şərq Tərəfdaşlığı ölkələrinin ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına dəstəyə dair mövqeyində hər hansı dəyişiklik baş vermədi.

Sənəddə, həmçinin qeyd edilir ki, Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanat müsbət qarşılanır, gələcək sülh üçün bu razılaşmanın daha yaxşı perspektivlər açacağına ümid ifadə olunur. Burada, mülki əhalinin öldürülməsi, mülki infrastrukturun dağıdılması, kasetli döyüş sursatlarından istifadə pislənir və bu xüsusda həm Ermənistan, həm də Azərbaycana çağırışlar edilir. Sənəddə məcburi köçkünlər və qaçqınların evlərinə geri qayıtması, ehtiyacı olanlara humanitar yardımın göstərilməsi, habelə müharibə cinayətlərinə məsul olanların qanun qarşısında cavab verməsi kimi məsələlər əks olunub.

Bir sözlə, Avropa Parlamenti qətnaməsi Şərq Tərəfdaşlığı ölkələrindəki münaqişələrlə bağlı bütün məsələlərin həllini məhz beynəlxalq hüquq əsasında, ilk növbədə isə ŞT ölkələrinin beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüklərinin Aİ tərəfindən qətiyyətli dəstəklənməsi əsasında həll edilməsinin vacibliyini son 4 ildə olduğu kimi bir daha vurğulayıb.

O ki qaldı qətnamədə əks olunmuş bəzi əsassız və gecikmiş məqamlara, onlara aydınlıq gətirmək istərdik. İlk növbədə, bölgənin gələcək statusu və Dağlıq Qarabağın erməni əhalisi və irsinin təhlükəsizliyinin təmin olunması məsələsi ilə bağlı mövqeyimiz bəllidir və birmənalı şəkildə dəfələrlə ifadə olunub. Bu mövqe ilə tanış olmayan AP üzvlərinin diqqətinə bir daha çatdırırıq ki, Azərbaycan Prezidenti status məsələsini tarixin zibilliyinə yollayıb, erməni əhalisinin və irsinin təhlükəsizliyinə gəldikdə isə, Azərbaycan ərazisindəki bütün vətəndaşların hüquqları etnik mənsubiyyətindən və dinindən asılı olmayaraq Azərbaycan Konstitusiyası ilə təmin olunur; tarixi-mədəni abidələr isə dövlət səviyyəsində qorunur.

Qətnamədə qardaş Türkiyə ilə bağlı əsassız iddialar əks olunub, həqiqəti əks etdirməyən qərəzli fikirlərə yer verilib. Vurğulayırıq ki, Türkiyə bölgənin aparıcı ölkələrindən biridir, bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında maraqlıdır və bu xüsusda müstəsna rol oynayır".



### Çavuşoğlunun Brüsseldə keçirdiyi görüşlərdə Dağlıq Qarabağ məsələsi müzakirə olunub

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun Brüsseldə keçirdiyi görüşlərdə Dağlıq Qarabağ məsələsi müzakirə olunub.**

APA-nın xəbərinə görə, bu barədə M. Çavuşoğlu Brüsseldə keçirdiyi mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, Dağlıq Qarabağla yanaşı, Liviya və digər regional məsələlər keçirilən görüşlərdə müzakirə edilib.

XİN başçısı qeyd edib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan verdiyi sözləri tutur və Avropa İttifaqı da verdiyi sözü tutmalıdır.

### Ceyhun Bayramov gürcüstanlı həmkarı ilə telefonla danışıb




**22 yanvar 2021-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstan xarici işlər naziri David Zalkaliani arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, nazir Ceyhun Bayramov gürcü həmkarının eyni zamanda Gürcüstan baş nazirinin müavini vəzifəsinə təyin edilməsi münasibəti ilə səmimi təbriklərini çatdırıb və ona faliyyətində uğurlar arzu edib.

Nazirlər bölgədəki son vəziyyəti, eləcə də ikitərəfli münasibətlər gündəliyinə daxil olan müxtəlif sahələrdə əməkdaşlıq perspektivləri üzrə fikir mübadiləsi apardılar.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

### Milli Məclisdə şəhid ailələri və əlilliyi olan şəxslərlə bağlı dinləmə keçiriləcək



**Milli Məclisdə şəhid ailələri və əlilliyin olan şəxslərin sosial müdafiəsi, onların sosial təminatlarının yaxşılaşdırılması problemləri ilə bağlı dinləmə keçiriləcək.**

Bununla bağlı məsələ parlamentin Əmək və sosial siyasət komitəsinin 2021-ci il yaz sessiyası üçün iş planına daxil edilib.



### Türkiyə MN Azərbaycan hərbçilərinin də qatıldığı təlimlər barədə məlumat yayıb

**Türkiyə MN Azərbaycan hərbçilərinin də iştirak etdiyi təlimlər barədə məlumat yayıb**

"Qış təlimi-2021"ə hazırlığımız davam edir.

"Report" xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyindən bildirilib.

Məlumata görə, təlimdə iştirak edəcək zirehli nəqliyyat vasitələri, tanklar və özüyeriyən artilleriya qurğuları əraziyə gətirilib.

*Qeyd edək ki, Türkiyənin Qars şəhərində keçiriləcək "Qış təlimi-2021"də Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da iştirak edir.*

# "Dostluq" bağları gücləndirəcək

## Türk dövlətlərinin vahid mövqedən çıxış etməsi günün tələbidir



**"Xarici işlər naziri Ceyhun Bayramovun Orta Asiya ölkələrinə edilən səfərinin məqsədi türk dövlətlərinin dostluğunun və əməkdaşlığının möhkəmlənməsinə xidmət edir".**

**Bu sözləri "Şərq"ə millət vəkili Azər Badamov deyib. Deputat bildirib ki, 44 günlük Vətən müharibəsində bizə dəstək verən ölkələrə nəzər yetirəndə aydın şəkildə müşahidə olunur ki, əsasən türk dövlətləri bir-birini dəstəkləyirlər: "Xalq arasında belə bir deyim var:** - "Türkün dostu türkdür ". Türk dövlətləri eyni soykökə, oxşar mədəniyyətinə və eyni dil qrupuna daxildirlər. Tarixin dərinliyinə ensək, türk toplumlarının əvvəllər də vahid şəkildə olduğunu görərik. Qloballaşan dünyada daha güclü olmaq və sözünün kəsərini artırmaq üçün türk dövlətlərinin yenidən birləşməsi, beynəlxalq arenada vahid mövqedən çıxış etməsi olduqca vacibdir. Məhz 21 yanvarda Türkmənistan və Azərbaycan arasında "Dostluq" yatağının birgə işlənməsinə dair imzalanan Memorandumun da məqsədi Orta Asiyanın türk respublikası ilə dostluğu və əməkdaşlığı gücləndirməkdir. Bu anlaşma ilə Xəzərdə karbohidrogen resurslarının işlənməsi ilə əlaqədar ziddiyyətlər aradan qalxdı. "Dostluq" yatağından əldə olunan mənfəət Türkmənistan və Azərbaycan dövlətləri arasında bölünəcək. Bu yataq Xəzərdə işlənən ilk birgə layihə olmaqla iki ölkə arasındakı dostluğun və qardaşlığın möhkəm təməlidir. Ümumiyyətlə, Xəzərin hüquqi statusu müəyyən olunandan sonra Xəzər dənizi sülh, dostluq, qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq dənizi olub. İndi icra olunan birgə layihələr bu dostluq və əməkdaşlığı daha da möhkəmləndirəcək".

**İsmayıl**

# Təhsil naziri tarix açıqladı

## Fevralın 1-dən bütün təhsil müəssisələrində əyani tədris mərhələli şəkildə bərpa olunacaq

**Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair brifinq keçirilib. Brifinqdə çıxış edən Təhsil naziri Emin Əmrullayev bildirib ki, fevralın 1-dən bütün təhsil müəssisələrində əyani tədris mərhələli şəkildə bərpa olunacaq. Nazir deyib ki, təhsil müəssisələrində əyani tədrisin bərpası TN-in təkbaşına verəcəyi qərar deyil:**





### “Məqsəd mümkün dərəcədə məktəbləri dayanıqlı formatda əyani təhsilə qaytarmaqdır. Tələsik açıb, tələsik bağlamaq istəmirik”

”Fevralın 1-dən Bakı, Sumqayıt, Abşeronda ibtidai təhsil, məktəbəhazırlıq, icma əsaslı qrupların fəaliyyəti mərhələli bərpa ediləcək. İri şəhərlərdə tədris həftədə 3 dəfə olmaqla, digər rayonlarda isə həftədə 4 və 5 dəfə olmaqla bərpa olunacaq. Fevralın 1-dən sonrakı növbəti iki həftə ərzində sonrakı təhsil pillələrində əyani tədrisin bərpası barədə qərarlar olacaq, yoluxma proqnozunu indidən vermək çətindir. Buna görə kifayət qədər ehtiyatlı addımlar atmalıyıq”.

**Nazirin sözlərinə görə, sonrakı iki həftədə V-IX siniflərdə, həmçinin peşə və ali məktəblərdə əyani tədrisin qismən bərpası gözlənilir, amma bu, yoluxmadan asılıdır:** ”Metronun fəaliyyəti hələ də bərpa edilməyib, növbəti mərhələdə belə qərar olarsa, V-IX siniflər də açıla bilər. Hazırda bütün inzibati ərazilərdə heç olmasa gün ərzində bir yoluxma belə var. Daha az yoluxma olarsa, bölgələrdə daha sürətli açılma ola bilər. Növbəti həftələrdə - yəqin ki, fevralın 8-i və 15-i mümkün qədər açılış ola bilər, məqsəd mümkün dərəcədə məktəbləri dayanıqlı formatda əyani təhsilə qaytarmaqdır. Tələsik açıb, tələsik bağlamaq istəmirik”.

**Əyani tədris həftədə 3 dəfə olacaq**

**Nazir əlavə edib ki, əyani tədrisin həftədə 3 dəfə olması zərurətdən irəli gəlir:** ”ÜST-ni n tələbi sosial məsafənin 1,5 metr olmasıdır. Siniflərin, məktəblərin, müəllimlərin sayı baxımından siniflər bölünürsə, həftədə 5 dəfə mümkün olmur. Məktəblərin çoxu 2 növbəlidir. Əsas məsələ sıxlığı idarə etməkdir. Bütün məktəblərdə sıxlıq əmsalları eyni deyil. 85600 sinifdən 49 minində, yəni 57 faizində şagird sayı 20 nəfərə yaxın, 20 minində 20-25 nəfər arasındadır. Təxminən 80 faiz şagirdimiz 25 və daha az şagirdlə sinifdə oturur. 311 sinifdə, yəni siniflərin 0,9 faizində sinifdə 40-dan çox şagird olur. Distant təhsil bu gün seçimimiz yox, daha çox verilmiş vəziyyətdə ən yaxşı həll yoludur. Təhsil Nazirliyi olaraq çətinliyə cavabımız teledərslər, virtual dərslərdir”.

E.Əmrullayev deyib ki, elektron dərsliklərdən istifadə sayı ötən illə müqayisədə 2 dəfə artıb, yəni şagirdlər 4 milyon dəfədən artıq bu dərsliklərə müraciət ediblər: ”Təhsilin keyfiyyətinə gəldikdə, problem və mənfi zədə sosial baxımdan daha aşağı təbəqələrə dəyir, yeni ucqar kəndlərdə yaşayan şagirdlər, tələbələr daha az dəstək görmüş olur. Təhsilin keyfiyyəti vəziyyətin davam etməsi fonunda müsbət olub desək, düz olmaz. Amma yenə də bilik və bacarıqları qiymətləndirmədən sonra biləcəyik. Yaranan boşluqları necə doldura biləcəyimizi görəcəyik. Ən çox mənfi təsir ibtidai sinif və daha aşağı yaş təbəqələrinin sosial emosional vəziyyətlərinə olub. Eyni zamanda bunun aradan qaldırılması üçün daha dəqiq ölçmələrdən sonra dəqiq vəziyyətini biləcəyik. Müəllimlərin emosional vəziyyəti də çox önəmlidir. Müəllimlər ayrı otaqlarda dərs deyirdi, amma bu gün onları Təhsil Nazirliyi, valideyn daha yaxşı görür, ona görə də emosional baxımdan o qədər də rahat vəziyyət deyil. Güman edirik ki, bu dövr ərzində şagirdlərdə müstəqil öyrənmə bacarığında müəyyən irəliləyiş, müsbət dinamika olub. İKT bacarığı da hamı üçün irəliyə atılan addımdır”.

**Ali məktəblərdə təhsil haqları da əsas məsələlərdən biridir**

Azərbaycanda təxminən 182 min tələbənin olduğunu qeyd edən təhsil naziri əlavə edib ki, onların təxmini 167 mini bakalavr, 15 mini magistr təhsili alır: ”Onlardan 65 min 100 nəfəri dövlət sifarişi ilə təhsil alır. Dövlət hesabına təhsil alan sosial həssas təbəqəyə aid tələbə 11 500 nəfərdir. Tələbələrin 100-dən 56-sı dövlət hesabına təhsil alır. Son illərdə dövlət sifarişli yerlərlə bağlı müsbət dinamika var, 92 faiz daha çox. Hazırda 22682 nəfər dövlət sifarişi ilə oxuyur. Birinci kurslarda 60 faizdən artıq tələbənin təhsil haqqını dövlət ödəyir. Bəzi hallarda təhsil haqlarının ləğvi və ya tam dövlət tərəfindən ödənməsi barədə fikirlər səslənir. Dövlət iki halda - bir bacarıqlara görə, daha yüksək bal toplayan, bir də sosial ehtiyac meyarına görə təhsil haqqını ödəyir. Bu gün universitetlər daha yaxşı olmağa çalışır ki, daha çox dövlət sifarişli tələbə gəlsin. Təhsil haqlarının məbləğinə gəlincə isə bu, Azərbaycanda vergi güzəştlərinə görə aşağıdır. Universitetlərdə orta hesabla təhsil haqqı 2500 manatdır, bəzilərində hətta 2000-dən aşağıdır. Bu gün təhsil haqqı problemi var, bunu inkar etmək olmaz”.

Onun sözlərinə görə, bu, ali təhsil müəssisələri ilə ümumi uzlaşma qaydasında fərdi formada həll olunmalıdır: ”Həmçinin təhsil kreditləri ilə bağlı hökumət və parlament arasında anlaşmaya dair planlar var. Bununla əlaqədar 80 milyon manat nəzərdə tutulub. Kreditlərin 2 istiqamətdə olması nəzərdə tutulur”.

**“Vaksinasiya olunacaq müəllimlərin sayı hazırdır”**

*E.Əmrullayev bildirib ki, vaksinasiya olunacaq müəllimlərin sayı hazırdır:* ”Bakı, Sumqayıt, Abşeronda 16698 nəfər, bölgələrdə 32654 nəfər müəllim 59 yaşdan yuxarıdır. Onların vaksinasiya olmasını tövsiyə edirik. Özəl təhsil müəssisələri də Təhsil Nazirliyinin qəbul etdiyi qərarlara əməl etməlidir. Məktəblər açılandan sonra hər gün yoluxan şagird və müəllimlərin sayı ictimaiyyətə açıqlanacaq. Yoluxmaların əksəriyyəti evlərdə olur. Birinci mərhələdə şagirdlər arasında kütləvi yoluxma olmayıb, müəllimlər arasında 2 dəfə olmuşdu. Yuxarı sinif şagirdlərinin də fevralın 1-dən məktəbə qayıtmamasının əsas səbəbi də budur. Ona görə növbəti həftələrdə əyani tədrisin bərpası gözlənilir, amma hansı ardıcıllıqla olması pandemiya şərtlərindən asılıdır. Uşaq bağçalarının fevralın 15-nə qədər açılacağına ümidliyik. Bununla belə, bu məsələ ilə bağlı indi proqnoz vermək çətindir. Fevralın 1-dən qrupda 10 nəfərdən artıq olmamaqla repetitor xidmətlərinin bərpa olunacağı gözlənilir”.

**Müəllimlərin sertifikasiyası ilə bağlı dəqiq vaxt müəyyən olunmayıb**

*Təhsil naziri virtual dərslərə girməyən müəllimlərlə bağlı məsələyə aydınlıq gətirib. Onun sözlərinə görə, hər bir şəxs sosial məsuliyyətini dərk etməlidir:* ”Bəzi müəllimlərdə həqiqətən internet imkanı yoxdur. Müəllimlərin hər birini sistemdən görürük, amma hər biri ilə bağlı araşdırma mümkün deyil. Bir həftədə 6,2 milyon onlayn dərs verə bilmişik, bu, yaxşı dinamikadır. Müəllimlərin sertifikasiyası ilə bağlı dəqiq vaxt müəyyən olunmayıb, amma bu, ilin prioritetləri arasındadır. Nə vaxt işçi qrupumuz müəllimlərin sayı, prosesin necə başlanılmalı olduğunu müəyyən etsə, o zaman sertifikasiyanı aparmaq mümkün olar. Bununla bağlı işlərin düzgün aparılmasının tərəfdarıyam. Hələlik sertifikasiyanın bu ilin birinci yarım ilində olmayacağını deyə bilərəm.

Bu günləri ali təhsil müəssisələrində daha çox nəzəri dərslərin distant saxlanılmasının tərəfdarıyıq. Praktik məşğələ, laboratoriya işləri tələb edən dərslərin əyani formada keçirilməsini dəstəkləyirik. Bu dərslərin hansı ixtisaslarda necə olması ilə bağlı verilmiş situasiyadan asılı olaraq qərarlar veriləcək. Ümumi olaraq bunu da yaxın həftələrdə elan etməyi düşünürük. Məktəblərdə internetin vəziyyətinin, təhsil və internet arasında olan əlaqənin yaxşılaşması ilə bağlı hazırda müəyyən müzakirələr gedir və inanıram ki, ilin sonuna daha yaxşı vəziyyətdə olacağıq. Nazirlik müəllimlərin işə qəbul imtahanlarının yalnız Bakıda deyil, bölgələrdə keçirilməsi təcrübəsindən faydalanmaq istəyir. Düşünürük ki, bu, yaxşı təcrübə idi. Hamını birlikdə Bakıya yığmaqdansa, müxtəlif bölgələrdə mərkəzlərin olması, imtahanların bu şəraitdə keçirilməsi yaxşıdır. Xüsusi təhsil müəssisələrinin fəaliyyətinin bərpası çox ciddi sanitar qaydalara əmək edilməklə mümkündür. Sağlamlıq imkanları məhdud uşaqlarla bağlı evdə təhsil məsələsinə də fərdi qaydada baxılır. Burada sıxlıq olmadığı üçün problem yoxdur. Fənn olimpiadalarının keçirilməsi gözlənilir. Olimpiadaların keçirilməsi vəziyyətin hansı istiqamətdə gedəcəyindən asılıdır. Düşünürük ki, fevralın sonu, martın əvvəlində fənn olimpiadalarını keçirmək mümkün olar”.

**Fiziki tərbiyə dərslərinin əyani formada keçirilməsi müvəqqəti dayandırılır**

**Təhsil Nazirliyinin təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqubova bildirib ki, fevralın 1-dən dərslər hibrid formaya keçəcək:** ”Sıxlığı çox olan məktəblərdə dərslər həftədə 3 dəfə, sıxlığı tənzimlənən məktəblərdə isə 5 dəfə olacaq. Yoluxma ehtimalına görə, fiziki tərbiyə dərslərinin əyani formada keçirilməsi müvəqqəti dayandırılır. Məktəbdaxili qiymətləndirmə distant formada olsa da, keçirilməsi labüddür. Övladlarını məktəbə göndərməyə ehtiyat edən valideynlər də öz üzərinə məsuliyyət götürür. Məktəbdaxili qiymətləndirmənin distant formada olması sürpriz olmadı. Bu, əvvəldən deyilmişdi. Virtual dərslərə qatılmayan şagirdlərin necə olacağına gəldikdə, teledərslər şagirdlərə minimum bilik verir. Elektron dərsliklər də bu baxımdan onlara dəstəkdir. Qiymətləndirmənin keçirilməsi normal haldır. Distant formada qiymətləndirmədə iştirak edə bilməyən şagird növbəti 1 ay ərzində əyani formada iştirak edə bilər. Gözləmirik ki, bütün şagirdlər yüksək nəticə göstərəcək, sadəcə qiymətləndirmə də olmalıdır”.

*V.Yaqubova qəbul imtahanında gözlənilən güzəşt məsələsinə münasibət bildirib:* ”Mövzuların ixtisarı aparılıb. Xüsusilə çətin mövzular ixtisara salınıb. Bu siyahı artıq Dövlət İmtahan Mərkəzinə (DİM) göndərilib. DİM bunu nəzərə alaraq həmin mövzular üzrə suallar salmayacaq.

O, siniflərdə bütün şagirdlərin ”Virtual məktəb”də qeydiyyatdan keçsə də, çoxunun gündəlik dərslərə qoşulmaması məsələsinə münasibət bildirib: ”Bütün bu məsələlər məktəb səviyyəsində həll olunur. Məktəb direktoru, direktor müavini, sinif rəhbəri bu uşaqlarla iş aparmalı, məsələni aydınlaşdırmalıdılar ki, həmin şagirdlər nə üçün dərsə qoşulmurlar. Şagirdlərə biliyinə görə qiymət verilir, davranışına görə yox. Davranış dəyər məsələsidir, məktəbin apardığı siyasətdən, formalaşdırma qabiliyyətindən asılıdır. Sinifdən-sinfə keçmək üçün yeganə meyar isə şagirdin qiymətidir”.

**Aynurə Pənaqızı**

# Türkiyə ABŞ prezidenti qabaqlayacaq addımlar atır



## Çavuşoğlu öz arqumentini NATO rəhbərliyinin diqqətinə çatdırmağa üstünlük verir

**Ötən gün Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu NATO Baş katibi Yens Stoltenberqlə görüşüb. Brüsseldə səfərdə olan türkiyəli nazir ittifaq içində birlik və həmrəyliyin daha da gücləndirilməli olduğunu bildirib.**

"Ölkəmiz ittifaqın qorunmasında kritik və aparıcı rol oynayır. Əfqanıstan və İraqda NATO missiyalarını dəstəkləməyə davam edəcəyik".

**Görüş barədə "Şərq"ə danışan siyasi şərhçi Elçin Xalidbəyli bildirib ki, ABŞ-da Co Baydenin hakimiyyətə gəlməsi dünyada müəyyən dəyişikliklərin ola biləcəyi ilə bağlı ehtimalları artırıb. Onun sözlərinə görə, ABŞ NATO-da qeyri-rəsmi patron sayılır:**

"Bu hərbi-siyasi alyansda əsasən Ağ Evin maraqlarına uyğun qərarlar qəbul edilir. Yəni rəsmi Vaşinqton adıçəkilən qurumda əsas söz sahibi olan superdövlətdir.

Düzdür, son illərdə bu məsələdə müəyyən fərqli situasiya yaranıb. Tramp administrasiyası NATO da daxil olmaqla, bəzi önəmli beynəlxalq qurumlarda fəaliyyətini nisbətən arxa plana çəkmişdi.

Yeni prezident Co Bayden isə vaxtilə mövcud olmuş imkanların təkrar bərpa ediləcəyinin mesajlarını artıq indidən verməyə başlayıb. Təbii ki, bu, Türkiyənin maraqlarına o qədər də cavab vermir.

Çünki ABŞ ilə Türkiyə arasında kifayət qədər ciddi problemlər mövcuddur. Üstəlik, Bayden administrasiyası hakimiyyətə gələr-gəlməz dərhal ABŞ-Türkiyə münasibətlərində olan problemləri ön plana çıxartmağa çalışmaqdadır. Artıq ABŞ-Türkiyə müttəfiqliyinin təftiş olunmasına müəyyən cəhdlər var.

Xüsusilə də Türkiyənin Rusiyadan satın aldığı "S-400" zenit raket kompleksləri ilə bağlı iradlar gündəmə gətirilməyə başlayıb. ABŞ NATO ölkəsinin Rusiyadan silah almasının yolverilməz olduğunu qabardır. Və "S-400" raketlərinin aktivləşdirilməsinin NATO anlaşmalarına zidd olduğunu iddia edir. Bu məsələ həll olunmasa, Türkiyənin sanksiyalara məruz qalacağına eyham vurur".

E.Xalidbəyli Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun NATO baş katibi ilə görüşünün böyük önəm daşıdığını söyləyib:

"Çünki M.Çavuşoğlunun bu görüşdə "S-400" raketlərindən qaynaqlanan problemi NATO baş katibi ilə müzakirə edəcəyi qətiyyən istisna deyil.

Problemin içərisində NATO da dolayısı ilə yer almaqdadır. Böyük ehtimalla Türkiyənin xarici işlər naziri ölkəsinin arqumentlərini qabartmağa çalışacaq. Çünki bu məsələdə əslində Türkiyə haqlı durumdadır.

Türkiyənin hava hücumundan müdafiə sistemlərinə ehtiyacı var idi. Həmin sistemləri NATO Türkiyəyə vermədi. Eyni zamanda ABŞ bu tipli silahları Türkiyəyə satmaq istəmədi.

Ona görə də, rəsmi Ankara NATO ölkələri üçün nəzərdə tutulmuş "Patriot" raket sistemlərinə alternativ olaraq, Rusiyadan "S-400" raketləri almaq məcburiyyətində qaldı.

Digər tərəfdən, ABŞ-la Türkiyə arasında "F-35" hərbi təyyarələri ilə bağlı da ciddi problemlər mövcuddur. Türkiyə pulunu ödəsə də, ABŞ həmin təyyarələri Türkiyəyə verməkdən yayınır. Üstəlik, ödənilən bir neçə milyard dollarlıq məbləği də geri qaytarmaq istəmir".

**Analitikin sözlərinə görə, rəsmi Ankara bilir ki, Bayden administrasiyası "S-400" mövzusunun NATO daxilində müzakirə olunmasına çalışacaq:** "Ona görə də Mövlud Çavuşoğlu indidən həmin prosesə hazırlaşır. Öz arqumentini NATO rəhbərliyinin diqqətinə çatdırmağa üstünlük verir.

Türkiyənin bu qabaqlayıcı addımları problemin NATO daxilində müzakirəsi zamanı rəsmi Ankaraya müəyyən üstünlüklər qazandıra bilər".

**Yeganə Bayramova**



# "Ali təhsil haqqında" qanunun ilkin variantı hazırlanacaq

**"Ali təhsil haqqında" qanunun ilkin variantının hazırlanmasına başlanılacaq.**

Trend-in məlumatına görə, bunu Milli Məclisin Elm və təhsil komitəsinin sədri, işçi qrupun rəhbəri Bəxtiyar Əliyev "Ali təhsil haqqında" Azərbaycan Respublikası qanunu layihəsinin hazırlanması məqsədi ilə yaradılmış işçi qrupunun videokonfrans formatında görüşündə deyib.

**B.Əliyev bildirib ki, bu, işçi qrupunun ilk iclasıdır:** "Bugünkü iclasın məqsədi təhsil sahəsi üzrə mütəxəssislərin fikirlərini dinləmək, mövcud vəziyyəti təhlil etmək və onların əsasında "Ali təhsil haqqında" qanun layihəsinin hazırlanmasıdır.

Bununla bağlı biz beynəlxalq konvensiyaları, ölkəmizin qoşulduğu bir sıra beynəlxalq sənədləri, qanunvericiliyimizi və əmək bazarını təhlil etmişik. Bu gün səslənən fikirlər əsasında qanun layihəsinin ilkin variantı hazırlanacaq. İşçi qrupunun növbəti iclasında qanun layihəsinin ilkin variantı müzakirə ediləcək".

Komitə sədri bildirib ki, qanun layihəsi hazırlanıb komitəyə təqdim edildikdən sonra onun geniş müzakirələri keçiriləcək: "Komitədə müzakirələrdən sonra qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunacaq".

*Qeyd edək ki, videokonfransda Milli Məclisin spikeri Sahibə Qafarova, Təhsil Naziri Emin Əmrullayev də iştiak edib.*



# Azərbaycan Ordusunun şəhid zabitinin nəşi tapıldı

**Azərbaycan Ordusunun şəhid olan hərbi qulluqçusunun nəşi tapılıb.**

"Report"un Muğan bürosunun məlumatına görə, bir müddətdir itkin düşən leytenant Şükürlü Elvin Azad oğlunun nəşi doğulduğu Cəlilabad rayonunun Şiləvəngə kəndinə gətirilir.

Onunla yaşadığı evdə vida mərasimi keçiriləcək. Daha sonra şəhidin nəşi dəfn edilməsi üçün ailəsinin yaşadığı Bakı şəhərinə gətiriləcək.

*Qeyd edək ki, 1997-ci il təvəllüdlü, leytenant Elvin Şükürlü Vətən müharibəsinin ilk günlərində Kəlbəcər istiqamətində gedən döyüşlərdə şəhid olub. Oktyabrın əvvəllərindən sonra onun barəsində heç bir məlumat olmayıb.*

**Allah rəhmət eləsin!**

# Fransa haqsız mövqeyinin fərqindədir

## "Ümid edirik, rəsmi Paris əməkdaşlıq niyyətində səmimi olacaq"



Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovla Fransanın XİN rəhbəri Jan İv Lö Drian arasında telefon danışığı baş tutub. Nazirlər bölgədəki son vəziyyət, o cümlədən Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanmış 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli bəyanatlarının icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Azərbaycan və Fransa arasında ikitərəfli münasibətlərin cari vəziyyəti də müzakirə predmeti olub və bu sahədə dialoqun davam etdirilməsinin əhəmiyyəti vurğulanıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də gündəmə gətirilib. Sirr deyil ki, 44 günlük Vətən müharibəsində ATƏT-in Minsk qrupunun həmsədri olan Fransa açıq şəkildə işğalçı Ermənistanın tərəfində dayanıb. Hər durumda Yerevanı müdafiə edən Fransa rəhbərliyi öz torpaqlarını düşmən təcavüzündən azad edən Azərbaycan Ordusunu əsassız olaraq "işğalçı" kimi qələmə verməyə çalışıb. Müharibə boyu rəsmi Paris Azərbaycan və Türkiyə əleyhinə Avropa ölkələrindən ibarət koalisiya yaratmağa cəhd göstərib. Şəxsən, Prezident Emanuel Makron həmsədr ölkənin başçısına yaraşmayan açıqlamalar verərək, ölkəmizdə narazılığa səbəb olan mövqe sərgiləyib. Lakin Azərbaycanın böyük zəfərindən və regionda reallıqlar dəyişəndən sonra Fransa hökuməti də mövqeyini dəyişmək qərarına gəlib. Bir müddət əvvəl həm Makron, həm də Fransanın Azərbaycandakı səfiri öz açıqlamalarında rəsmi Bakı və Ankara ilə münasibətləri normallaşdırmaqda maraqlı olduqlarını bəyan ediblər. Nazirlər arasında baş tutan telefon danışığı da göstərir ki, Fransa Azərbaycanla yaxınlaşma siyasətinə yönəlib. Əlbəttə, rəsmi Parisin əlaqələri düzəltməkdə nə dərəcə səmimi olduğunu zaman göstərəcək.

**Millət vəkili, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə "Şərq"ə deyib ki, Azərbaycan bütün ölkələrlə ikili əməkdaşlıqda maraqlı olduğunu dəfələrlə bəyan edib. Deputatın sözlərinə görə, rəsmi Bakı əsaslı səbəb olmadan heç bir dövlətin siyasətini tənqid etmir:**

"Həmişə Avropa dövlətləri ilə xoş münasibətin, dostluq əlaqələrinin inkişafını istəmişik. Əfsuslar olsun ki, bəzən münasibətimizə adekvat cavab almamışıq. Təbii olaraq, ilk növbədə ölkəmizin maraqları naminə, suverenliyimizin müdafiəsi istiqamətində addımlar atmalıyıq. Şübhə olmasın ki, bundan sonrakı qərarlarımızı da bu çərçivədə verəcəyik. Fransa işğalçı Ermənistana arxa çıxmaqla münasibətləri özü korlayıb. Ancaq rəsmi Bakı bütün ölkələrlə normal münasibət qurmağa hazırdır. Nəinki Fransa, hətta uzun illər onların müdafiə etdiyi Ermənistanı belə müəyyən olunmuş şərtlər fonunda əməkdaşlığa dəvət edirik. Baxmayaraq ki, Ermənistan hərbi cinayətlər törədib, ərazimizi işğalda saxlayıb, amma əvvəl-axır qonşu ölkələr arasında əlaqələr formalaşmalıdır. Hər halda Fransa Ermənistan olmadığı üçün bu Avropa ölkəsi ilə əməkdaşlığı davam etdirmək lazımdır. Görünən odur ki, nəhayət, Fransa rəhbərliyi haqsız mövqelərinin fərqinə varır. Ümid edirik, rəsmi Paris əməkdaşlıq niyyətində səmimi olacaq".

**İsmayıl Qocayev**

# Şuşa Paşinyanın qəddini əyib

Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə keçirilən iclasda erməni ictimaiyyətində səs-küy doğuran açıqlamalar verib. Müxalifətçi millət vəkili Naira Zohrabyanın Şuşanı itirmədən müharibəni bitirməyin mümkünlüyü ilə bağlı sualını cavablandıran Paşinyan Şuşanın erməni şəhəri olmadığını etiraf edib. Baş nazirin sözlərinə görə, müzakirə prosesinin bütün dövrü ərzində azərbaycanlı qaçqınların Şuşaya qayıtmasını nəzərdə tutmayan bir seçim yox idi:





## Baş nazir xalqına səslənir ki, daha bu şəhərdən az danışın

”Müharibəyə qədər Şuşa əhalisinin 90 faizi azərbaycanlılar idi. Yəni siz demək istəyirsiniz ki, əhalisinin 90 faizindən çoxu azərbaycanlı olan Şuşa ermənilərə aiddir?”. Hökumət rəhbəri müharibəni daha az ərazi itkisi ilə dayandırmaq imkanının olmadığını vurğulayıb: ”Bu cür söhbətlər əfsanədir. Müharibəni mümkün qədər tez bitirmək üçün bir sıra addımlar atdıq. Oktyabrın 12-də Moskvada atəşkəs razılaşması imzalandı və danışıqların ATƏT-in Minsk qrupu formatında davam etdirilməsinə baxmayaraq, müqavilənin şərtləri pozuldu. Üç dəfə barışıq imzalamağa çalışdıq, amma nəticəsi olmadı”.

Xatırladaq ki, Ermənistanın baş naziri kapitulyasiyaya imza atdıqdan dərhal sonra xalqa müraciətində də Şuşa haqqında erməni cəmiyyətində qıcıq yaradacaq fikirlər səsləndirmişdi. O bildirmişdi ki, ”ermənilərə Şuşa lazım idisə, niyə gedib məskunlaşmadılar, şəhər boz və bəxtsiz idi”. Halbuki, baş nazir müharibədən əvvəl həm bəyanatları, həm də hərəkətləri ilə daha çox aqressiv yanaşmaları ilə gündəmə gəlirdi. Getdiyi hər yerdə ”Qarabağ Ermənistandır!” deyən baş nazir vəziyyəti mümkün qədər gərginləşdirməyə cəhd edirdi. Lakin kapitulyasiyaya imza atdıqdan sonra Paşinyanın radikal mövqeyindən əsər-əlamət qalmayıb.

**Paşinyanın ziddiyyətli açıqlamalarını ”Şərq”ə təhlil edən politoloq İlqar Vəlizadə bildirib ki, daxili siyasi proseslər baş naziri bəzi etiraflara məcbur edir. Ekspertin sözlərinə görə, baş nazir tədricən mövcud reallıqla barışmalı olur:** ”Son hadisələr göstərir ki, Ermənistanda bəzi müxalif qruplar revanş niyyəti güdürlər. Paşinyanı müharibəni uduzmaqda, qətiyyət göstərməməkdə, Şuşanın alınmasına göz yummaqda ittiham edirlər. Paşinyan isə Şuşanın Dağlıq Qarabağ məsələsində dəxli olmadığını sübut etməyə çalışır. Ona görə də Şuşanın tarixən azərbaycanlılar yaşayan şəhər olduğunu vurğulayır. Ümumiyyətlə, Şuşa haqqında diskusiyaları cəmiyyətin gündəmindən birdəfəlik çıxartmaq istəyir. Çünki belə diskusiyaların sonunda istər-istəməz Paşinyan günahkar çıxır. Yəni Şuşanın geri qaytarılmasının günahkarları nə qədər ictimaiyyətdə az müzakirə edilərsə, bu bir o qədər Nikolun imicinə az xələl yetirər. Ona görə də Paşinyan xalqda belə bir rəy yaratmaq istəyir ki, Şuşadan az danışmaq lazımdır, onsuz da o şəhər ermənilərin olmayıb. Hətta xatırlayırsınızsa, məğlubiyyətdən dərhal sonra Şuşa haqqında ”boz və bəxtsiz şəhər” kimi danışmışdı.

**“Ermənistan cəmiyyəti üzləşdiyi yeni situasiyanı düzgün dəyərləndirməlidir"**

**Politoloq xatırladıb ki, Paşinyan bir il öncə fərqli fikirlər səsləndirirdi. Cıdır düzündə rəqs edir və ”Qarabağ Ermənistandır” deyirdi:** ”Müharibədən qabaq reallıqlar başqa idi. Şuşa və digər işğal olunmuş şəhərlər ermənilərin əlindəydi. Paşinyan məhz buna dayanaraq sərsəm bəyanatlar səsləndirir, müharibə ritorikasına üstünlük verirdi. Amma Azərbaycan reallıqları öz gücü ilə dəyişdi. Paşinyan da indiki vəziyyətə uyğun danışmağa başlayıb. İctimai-siyasi durum 180 dərəcə dəyişib deyə, baş nazir cəmiyyətin rəyini başqa səmtə yönəltmək istəyir. Doğrudan da indi cəmiyyətin fikri Şuşada yox, mövcud reallıqlarda olmalıdır. Ermənistan cəmiyyəti üzləşdiyi yeni situasiyanı düzgün dəyərləndirməlidir”.

**İsmayıl Qocayev**



# “Dedikləri düz çıxdı...”

## Şəhid topçunun qardaşı danışır

**Artıq “Azərbaycan tarixi” dərsliklərində igid və mərd oğullarımız, Milli Qəhrəman Mübariz İbrahimov, Raquf Orucov, Teymur Pənceliyev və digərləri haqqında şagirdlərimizə məlumat verilir.**

Bu adların sırasına İkinci Qarabağ müharibəsindəki şəhid və qazilərin, o cümlədən kiçik çavuş Ceyhun Hüseynovun adı da əlavə ediləcək.

Ceyhun 1991-ci ildə Ağcabədidə anadan olunub. Kənd orta məktəbini bitirdikdən sonra vətənə borcunu yerinə yetirib. Sonra isə müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb.

**Və qardaşı Bilal bəyin “Şərq”ə dediyi kimi, bu yol onu şəhadət zirvəsinədək gətirib:**

”Ceyhun 2016-cı ilin Aprel döyüşləri zamanı da böyük şücaət göstərmişdi. İkinci Qarabağ müharibəsində isə topçu idi. Oktyabrın 16-da Xocavənd istiqamətindəki döyüşlərdə şəhid oldu. İyirmi dəqiqə əvvəl danışmışdıq.

Demişdi ki, hər şey yaxşıdır, irəli gedirik, düşməni məhv edirik. Nə demək, olar, qismət. Amma qardaşımın söylədiyi düz çıxdı: təkcə Ermənistan ordusu yox, bütün hərbi-siyasi hakimiyyəti biabırcasına uduzdu”.

**Kənan**

# “Üç”lərin görüşü Ermənistanı təşvişə salır

## Şair Ramaldanov: “Fevral ayında keçiriləcək təlimlərin digərlərindən fərqliliyi var”

Azərbaycanla Türkiyə fevralın 1-dən 12-dək Ermənistanla həmsərhəd olan Qarsda ortaq hərbi təlimlər keçirəcək. Təlimdə tank və artilleriya bölmələri, helikopterlər, xüsusi təyinatlı qüvvələrin birləşmələri iştirak edəcək. Türkiyə-Azərbaycan hərbi təlimləri erməni siyasi dairələrində normal hadisə kimi qəbul edilməyib. Onlar bunu erməni tərəfinə hər an müharibə başlaya biləcəyi barədə açıq bir mesaj kimi qəbul edirlər.

Hərbi təlimlər fonunda Ermənistanı narahat edən digər məsələ keçən həftə İslamabadda Azərbaycan, Türkiyə və Pakistan XİN başçılarının üçtərəfli görüşünün baş tutmasıdır. Bu formatda, üç ölkənin xarici siyasət rəsmiləri artıq ikinci dəfədir görüş keçirir. Vətən müharibəsi zamanı, Türkiyə ilə yanaşı, Pakistan da Azərbaycanı dəstəkləyirdi. Pakistan Azərbaycana qardaş olan ölkələrdən biridir, hətta Ermənistanı dövlət kimi tanımayan yeganə ölkədir.

**Təlimlərlə bağlı fikirlərini ”Şərq”lə bölüşən ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirib ki, Azərbaycan və Türkiyə arasındakı münasibətlər getdikcə inkişaf edir:** ”Bu münasibətlərin inkişafını daha çox hərbi sahədə görürük. Türkiyə ən çətin zamanlarda ölkəmizin yanında olub. Artıq



Azərbaycan-Türkiyə hərbi təlimləri ənənəvi xarakter daşıyır. Hər il iki ölkə hərbi sahədə iş birliyini planlaşdırırlar. Hələ Vətən müharibəsindən öncə də Türkiyə ilə birgə irimiqyaslı hərbi təlimlər keçirirdik. Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri Qarabağ savaşında mənəvi dəstəyini göstərdi. Ordumuzun inkişafı və gücü Ermənistan işğalçılarını darmadağın etmək üçün yetərli oldu”.

**Polkovnik vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələri yenə də özünü inkişaf etdirir, döyüş hazırlığını yüksəltməklə məşğuldur:** ”Türkiyə kimi güclü və nüfuzlu dövlətin ordusu ilə hərbi təlimlərin keçirilməsi Azərbaycan üçün faydalıdır. Fevral ayında keçiriləcək təlimlərin digərlərindən fərqliliyi var: Artıq Azərbaycan ordusu məhz qalib tərəf kimi təlimlərə qatılır. İki qardaş ölkə qarşılarına qoyduqları hədəflərə nail olacaq”.

Ermənistandakı narahatlığa gəlincə, Ş.Ramaldanov qeyd edib ki, bu təlimlər üçüncü bir dövlətə yönəlməyib: ”Hərbi təlim iki qardaş ölkə arasında olan iş birliyidir. Azərbaycan və Türkiyənin hansısa ərazi iddiası yoxdur. Onlar sadəcə döyüş hazırlıqlarını yüksəldirlər. Ermənilər isə hər zaman yuyulmamış çömçə kimi özlərini ortaya atıb, müəyyən bəyanatlar verirlər. Erməni xalqının öz rəhbərlərindən başqa düşməni yoxdur.

Onların hərbi-siyasi başçıları SOROS-un alətinə çevrilərək öz xalqını pis vəziyyətə saldı. Düşünürəm ki, Ermənistan rəhbərliyi bu təlimlərə yox, öz ölkəsindəki hadisələrə diqqət yönəltməlidir”.

**Yeganə Bayramova**

# “Minsk qrupuna ehtiyacımız yoxdur”

## Elxan Şahinoğlu: “Artıq ermənilər saman çöpündən də yapışmağa hazırdırlar ki, gedişatı dəyişə bilsinlər”



**Ermənistanın Xarici işlər naziri Ara Ayvazyan ATƏT-in Minsk qrupu həmsədr ölkələrin səfirlərini qəbul edib. ”Şərq”in xəbərinə görə, görüş çərçivəsində Qarabağ müharibəsindən sonrakı vəziyyət müzakirə olunub.**

Tərəflər öncə Qarabağda sülhyaratma prosesində Minsk qrupunun yenidən iştirakının zəruriliyini qeyd ediblər. Bundan başqa, erməni nazir Xankəndidəki ermənilərin hüquqlarının qorunması, təhlükəsizlik və onlara humanitar yardım məsələlərini gündəmə gətirib.

Qeyd edək ki, hazırda Xankəndidəki ermənilərin təhlükəsizliyinə hər hansı bir təhdid yoxdur. Çünki Azərbaycanın paytaxtı Bakı şəhərində 30 minə yaxın erməni yaşayır ki, onlar da yerli sakinlərlə bərabər hüquqlara malikdirlər. Üstəgəl, Qarabağdakı rus sülməramlıları da ermənilərin hüquq və təhlükəsizliyini təmin edir. Bundan başqa, Azərbaycan hökuməti dəfələrlə bəyan edib ki, ölkəmizin qanunlarını, Azərbaycanın vətəndaşlığını qəbul edən ermənilər orada sərbəst şəkildə yaşaya bilərlər.

Həmçinin A.Ayvazyan müharibə bitdikdən, yəni 10 noyabrda kapitulyasiya sənədi imzalandıqdan sonra Qarabağa gizli yollarla keçib, onun səfəri ərəfəsində erməni separatçıları Azərbaycan əsgərlərinə silahlı basqın edib. Nəticədə əsir götürülən terrorçuların qaytarılmasına diqqət çəkən Ayvazyan həmin şəxslərin geri alınması ilə bağlı beynəlxalq təşkilatlarla, xüsusən də BMT ilə əlaqələrin qurulmasının vacibliyini vurğulayıb.

Ayvazyanın səyi ilə Ermənistan müxtəlif yollara əl ataraq Minsk qrupunun fəaliyyətinin yenidən bərpası üçün səylərini ciddi-cəhdlə davam etdirir. Maraqlıdır, bu danışıqlar hansısa nəticə verə bilərmi?

**Sualımızı cavablandıran ”Atlas” Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu ”Şərq”ə açıqlamasında söyləyib ki, bu müzakirələrin hər hansı bir nəticəsi olmayacaq:** ”Artıq məsələmizi özümüz həll etmişik. Vaxtilə Minsk qrupundan xahiş edirdik ki, işğala son qoyulsun. Lakin bunu etmədilər, BMT-nin 4 qətnaməsi havada qaldı. Azərbaycan özü bu qətnamələri yerinə yetirirdi. İndi isə Minsk qrupuna ehtiyacımız yoxdur. Düzdür, qurumun müzakirələrdə iştirakından imtina etmirik ki, sonra böyük dövlətlər bizə təzyiq göstərməsin. Amma Minsk qrupunun fəaliyyətinə ehtiyacımız yoxdur. Status məsələsi bizi maraqlandırmır. İndi ermənilər bu quruma yalvarırlar ki, Dağlıq Qarabağın statusunu gündəmə gətirsinlər. Aydın məsələdir ki, Minsk qrupu gəlib-gedəcək, lakin görüşlər bizim üçün əhəmiyyətsiz olacaq”.

**Analitik qeyd edib ki, heç kim, hətta Minsk qrupu Dağlıq Qarabağın statusunun müəyyənləşməsi ilə bağlı bizə təzyiq göstərə bilməz:** ”Artıq ermənilərin mövqeyi aydındır. Onlar müharibədə məğlub olublar. İndi saman çöpündən də yapışmağa hazırdırlar ki, gedişatı dəyişə bilsinlər. Ona görə də məqsədləri budur ki, Minsk qrupunun fəaliyyətini reallaşdırsınlar və böyük dövlətlərdə maraq oyatsınlar”.

E.Şahinoğlu sonda vurğulayıb ki, Ermənistanın Bayden Administrasiyasına da müəyyən ümidləri var: ”Düşünürlər ki, bəlkə, Amerika onlara dəstək verər və yaxud Minsk qrupunun rolu fəallaşar. ABŞ-ın isə bölgəyə təsir imkanları artıq aşağı səviyyədədir. İndi bölgədə əsas, aparıcı rol oynayan Rusiya və Türkiyədir. Ona görə də inanmıram ki, ermənilərin bu çağırışlarına müsbət reaksiya verilsin. Uzaq başı səfərlər olacaq, lakin həmin səfərlərin bizim üçün əhəmiyyəti yoxdur”.

**Yeganə Bayramova**

## “YAŞAT” Fonduna toplanan vəsait 27 milyon manatı ötüb




**Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu olan ”YAŞAT” Fonduna toplanan vəsait 27 milyon manatı ötüb.**

Fonda toplanan vəsait 27 476 577.35 manatdır. Həmin vəsaitdən 16 400 866.8 manatı fiziki şəxslər, 11 075 710.55 manatı isə hüquqi şəxslər tərəfindən ödənilib.

Fonda daxil olan vəsaitin 1 468 655.53 manatı xərclənib. Vəsaitin qalığı isə 26 007 921.82 manatdır.

*Qeyd edək ki, ”YAŞAT” Fondu Prezident İlham Əliyevin dekabrın 8-də imzaladığı fərman əsasında yaradılıb.*

## Səfir açıqlama verib

### Britaniya da minalardan təmizlənmə işlərinə köməklik göstərə bilər

**Yanvarın 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Şarp ilə görüşüb.**

Müdafiə Nazirliyindən “Şərq”ə verilən məlumata görə, səfir Vətən müharibəsində qazanılan qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib.

Azərbaycan-Böyük Britaniya əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini bundan sonra da əsirgəməyəcəyini qeyd edən C.Şarp ikitərəfli əməkdaşlıq çərçivəsində Böyük Britaniyanın azad edilmiş ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərində Azərbaycana köməklik göstərə biləcəyini bildirib.

# “Dostluq”dan başlanan yol uzun olacaq

## Türkmənistan Azərbaycan üzərindən enerji resurslarını Avropa bazarlarına çıxarmaq imkanı qazanacaq

Yanvarın 21-də Aşqabadda "Dostluq" yatağının karbohidrogen resurslarının birgə işlənməsi ilə bağlı imzalanan Memorandum bir çox cəhətdən tarixi hadisədir. Anlaşma Mərkəzi Asiyanın enerji resurslarınının Azərbaycan vasitəsilə dünyaya çıxarılması ideyasının gerçəkləşdirilməsi yolunda ciddi bir mərhələ hesab olunur. Yataqdan hasil olunacaq neft və qaz Azərbaycanın infrastrukturu və ixrac kəmərləri vasitəsilə daşınacaq.

Bu isə neft-qaz ixracatçısı olan Azərbaycanın həm də tranzit ölkə kimi əhəmiyyətini artıracaq. ”Dostluq” yatağı Azərbaycanla Türkmənistanın dənizdəki sərhədində yerləşdiyinə görə, uzun illər onun işlənməsi mümkün olmayıb. Məsələ ilə bağlı ardıcıl danışıqlar aparılıb. 1998-ci ildə Xəzər dənizinin orta xətti koordinatları üzrə Azərbaycanla Türkmənistan arasında ekspert qrupu yaradılıb. Dövlət başçılarının ardıcıl təmasları, qarşılıqlı səfərlər iki dost ölkə arasında bütün məsələlərin hər iki tərəf üçün qənaətbəxş səviyyədə həlli üçün etibarlı zəmin yaradıb. Nəticədə tərəflər arasında ortaq məxrəc tapılıb və anlaşma imzalanıb.



**Millət vəkili, siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu ”Şərq”ə vurğulayıb ki, ”Dostluq” Memorandumunun əhəmiyyətini bir neçə bucaqdan izah etmək lazımdır. Deputatın sözlərinə görə, Azərbaycanın ”Kəpəz”, Türkmənistanın ”Sərdar” adlandırdığı yataqla bağlı uzun müddət ortaq məxrəcə gəlmək mümkün olmayıb:** ”Əslində bu yatağı sovet dövründə Azərbaycan neftçiləri kəşf ediblər. Lakin hər iki ölkənin sərhədində yerləşdiyi üçün yatağın konkret hansı dövlətə aid olması ilə bağlı problem yaşanırdı. Nəhayət, anlaşma imzalandı və yatağın ortaq istifadəsinə qərar verildi. Bu da iki ölkə arasında münasibətlərin yeni mərhələsi deməkdir. Türkmənistanda yeni hakimiyyət formalaşdıqdan sonra Aşqabadla Bakı arasında yaxınlaşma dinamik xarakter aldı. 2008-ci ildən bu günə kimi Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistana üç dəfə səfər edib. Türkmənistan prezidenti isə Azərbaycana 6 səfər reallaşdırıb. Bu qarşılıqlı səfərlər ona dəlalət edirdi ki, Türkmənistanla Azərbaycan arasında münasibətlərin ən yüksək səviyyədə inkişaf etdirilməsi hər iki tərəfin



maraqlarına cavab verir. 2018-cu ildə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsindən sonra Xəzər hövzəsi ətrafında yeni əməkdaşlıq imkanlarının ortaya çıxması haqqında fikirlər səsləndirilirdi. Xüsusən, Türkmənistanla Azərbaycan arasında əməkdaşlıq sıxlaşdı və ”Dostluq” Memorandumunun imzalanmasına gətirib çıxartdı”.

*E.Mirbəşiroğlu qeyd edib ki, bundan sonra Azərbaycanla Türkmənistan arasında iqtisadi əlaqələr, enerji sahəsində əməkdaşlıq yeni müstəvidə cərəyan edəcək:* ”Təbii ki, burada Azərbaycanın son hadisələr fonunda yüksələn nüfuzu, regional rolunun artması mühüm rol oynayır. Türkmənistan digər ölkələrlə də enerji sahəsində əməkdaşlığını sürdürür. Amma elə rəsmi Aşqabadın özünün etirafına görə, bu cür əməkdaşlıqlar Türkmənistanı heç vaxt tam qane etməyib. Məsələn, Türkmənistan Çinə qaz satsa da, həmişə bu sahədə ciddi problemlər, narazılıqlar olub. Çin 7 min kilometr boru kəmərinin çəkilişini üzərinə götürdüyü üçün aldığı qazın pulunu ödəməkdən imtina edir. Bu baxımdan Azərbaycanla əməkdaşlıq Türkmənistanın maraqlarına tam uyğundur”.

**Parlament üzvü bəyan edib ki, Naxçıvanla Azərbaycan arasında quru əlaqəsinin bərpa edilməsi türk dünyası arasında kommunikasiya imkanlarını artıracaq:** ”Türkmənistan Azərbaycan üzərindən enerji resurslarını Avropa bazarlarına çıxarmaq imkanı qazanacaq. Həmçinin, Əfqanıstan, Türkmənistan və Azərbaycan üzərindən nəqliyyat dəhlizinin inkişaf etdirilməsi bütövlükdə geniş bir coğrafiyada iqtisadi əlaqələr üçün ciddi perspektivlər açacaq”.

**İsmayıl Qocayev**




# Rusiyadan xeyir gəlməz

## Azərbaycan 5 ilin tamamını gözləmədən rus sülhməramlıların ölkədən çıxarılması tələbini qoya bilər

**Zaman ötdükcə Qarabağdakı Rusiya sülhməramlılarına münasibət bəzilərinin iddia etdiyi kimi müsbətə doğru dəyişmir. Əksinə, hər gün baş verən neqativ olaylar "sülhməramlı" adı ilə bölgədə fəaliyyət göstərən rus ordusundan narazılığı daha da artırır.**

Ələlxüsus, sülhməramlıların səlahiyyətlərindən kənar işlərə müdaxiləsi, separatçı Arutunyanla mütəmadi əlaqə saxlanması, ermənilərin kütləvi şəkildə Qarabağa daşınması və digər tərtibatçı davranışlar vəziyyəti gərginləşdirir. Əslində, sülhməramlı missiyanın vəzifə və funksiyaları beynəlxalq qanunvericiliklə və birgə üçtərəfli bəyanatla tənzimlənir. Təəssüf ki, Rusiya sülhməramlıları öz fəliyyətini üzərinə götürdüyü öhdəliklərə uyğun qurmaq əvəzinə oyun qaydalarını bilərəkdən pozurlar. Heç şübhəsiz, ərazi bütövlüyümüzün bərpası uğrunda mübarizəmiz hələ davam edir. Belə şəraitdə Rusiya sülhməramlılarının Qarabağdakı özbaşınalığına son qoyulmasa, proses daha tündləşər. Ona görə də Azərbaycan ictimaiyyətinin böyük əksəriyyəti sülhməramlıların Qarabağdan çıxarılmasını, qalacaqları təqdirdə isə vəzifə səlahiyyətlərini aşmamalarını tələb edirlər.

**"Azərbaycan-Erməni" Araşdırmaları Mərkəzinin rəhbəri, Türkiyənin Ərciyəs Universitetinin professoru Qafar Çaxmaqlı "Şərq"ə açıqlamasında bildirib ki, 44 günlük savaşdan əvvəl də Rusiya bölgədə yerləşmək və burada təkbaşına söz sahibinə çevrilmək üçün çalışırdı. Professorun sözlərinə görə, Moskva ilə Minsk qrupunun digər həmsədrləri - ABŞ və Fransa arasında gizli rəqabət həmişə olub:** "Rusiya belə hesab edir ki, Cənubi Qafqazda yeganə hegemon güc olmalıdır. Qoşunların "sülhməramlı" adı ilə dərhal Qarabağa yerləşməsi bu səbəbdəndir. Əslində rus sülhməramlılarının təyinatlarından kənara çıxması gözlənilən idi. Bölgədə möhkəmlənməyə çalışan Kreml ermənilərin zəif damarını tutub. Hazırda Ermənistana rusların burada olması sərf etdiyinə görə, Yerevan tərəfdən güclü etiraz yoxdur. Amma bəzi hallarda Ermənistandakı siyasi qüvvələr gələcəkdə bu "sülhməramlıların" onların başına nə oyun gətirəcəklərini etiraf edirlər. Azərbaycanda isə öz missiyasını yerinə yetirməyən sülhməramlıların davranışları sərt reaksiyalara səbəb olur. Rusiya ilk növbədə təhlükəsizliyi qorumalıdır. Sülhməramlılar sadəcə Qarabağa geri qaytarılan ermənilərin təhlükəsizliyindən məsul olduqlarını zənn edirlər. Azərbaycanlılar da öz doğma yerlərinə, o cümlədən Xankəndinə qayıtmalıdır. Bəs indiki halda onların təhlükəsizliyi necə olacaq? Bizim insanlarımızı rus sülhməramlılarımı qoruyacaq? Məncə, bu gedişlə sülhməramlıların missiyası iflasa uğrayır".

**Q.Çaxmaqlının fikrincə, Rusiya sülhməramlıları ilə birlikdə Türkiyənin Silahlı Qüvvələrinin də Qarabağda olması əsas şərtdir:** "Gec-tez bu məsələ həllini tapacaq. Əgər yaxın zamanda vəziyyət müsbətə doğru dəyişməsə, Azərbaycanın haqqı var ki, 5 ilin tamam olmasını gözləmədən rus sülhməramlıların çıxarılması tələbini qoysun. Müharibə bitib, Azərbaycan bütün Qarabağda nəzarəti ələ almalı, suverenliyini bərpa etməlidir. Nəzərə alaq ki, bölgədə qarışıqlıq və özbaşınalıq davam etdikcə, Ermənistan bu vəziyyətdən sui-istifadə edir. Yerevan hökuməti Dağlıq Qarabağla bağlı artıq cəhənnəmə göndərilmiş "status" məsələsini geri gətirmək istəyir. 11 yanvarda Moskva görüşündən sonra Nikol Paşinyanın çıxışında bu fikri səsləndirildi. Eyni zamanda Lavrovun "status"la bağlı dedikləri də bizim üçün bir "sos" siqnalı olmalıdır. Rusiyaya sakitlik lazım deyil. Kreml siyasi və hərbi müstəvidə vəziyyəti qəsdən gərginləşdirir ki, sülhməramlılar bölgədə uzunmüddətli qalsınlar. Bu isə Azərbaycana sərf etmir. Hesab edirəm, yaxın zamanda başqa ölkələrin müdaxiləsi nəticəsində onsuz da beynəlxalq sülhməralı mandatı olmayan Rusiyanın özbaşınalığına son veriləbilər".

**İsmayıl Qocayev**



# Ermənilərin böyük cinayəti...

## Nazir: "Xudavəng monastırından 8 əsrlik freskaları qaşıyıb aparıblar"

**"Şübhəsiz bu, böyük cinayətdir, biz bunu dəfələrlə həm UNESCO, həm də digər beynəlxalq təşkilatlar səviyyəsində bəyan etmişik".**

APA-nın məlumatına görə, bunu jurnalistlərin Xudavəng monastırından 8 əsrlik freskaları qaşıyıb aparmaları ilə bağlı sualına cavabında mədəniyyət naziri Anar Kərimov deyib.

Nazir qeyd edib ki, ermənilərin bu addımı vandallıqdır və UNESCO-nun 1970-ci il konvensiyasına ziddir: "Biz bunu qətiyyətlə pisləyirik və bununla bağlı işlərimizi qətiyyətlə davam etdirəcəyik. UNESCO-ya bu haqda bildirilib. Bu hadisəyə UNESCO tərəfindən hüquqi qiymətin verilməsinə çalışacağıq".

# AMEA-da yeni təyinatlar olub



**AMEA-da yeni təyinatlar olub. AMEA Rəyasət Heyətinin dünən keçirilən iclasında Radiasiya Problemləri İnstitutunun Elmi işlər üzrə direktor müavini Hökmən Mahmudov, Baş mühasib Şəfa Qasımzadə, Kadrlar İdarəsinin rəisi Lətifə Qocayeva vəzifələrindən azad olunublar.**

Bundan başqa Arif Həşimov Fizika İnstitutunun baş direktoru, fizika üzrə elmlər doktoru Anar Rüstəmov institutun icraçı direktoru, akademik Əli Abbasov İdarəetmə Sistemləri İnstitutunun baş direktoru, AMEA müxbir üzvü Əminağa Sadıqov isə icraçı direktor təyin edilib.

*Radiasiya Problemləri İnstitutunun idarəçiliyi müvəqqəti olaraq AMEA-nın Akademik katibi Adil Qəribova tapşırılıb.*



# Ermənistan Qarabağ savaşını dünyadan gizlətmək istəyir

## "Müharibədə iştirak edənlərin çoxunun hərbi biletində orduda sürücü kimi xidmət etdiyi qeyd edilir"

**Ermənistan dəyişməyib, belə getsə heç dəyişməyəcək də. Onlar yenə öz məkrli məqsədlərinə nail olmaq üçün neqativ əməllərindən vaz keçmir.**

Bu günləri Ermənistanda müharibədə iştirak edənlərin çoxunun hərbi biletində orduda sürücü kimi xidmət etdiyi qeyd edilir. Bu barədə erməni KİV-ləri məlumat yayıblar. Məqalədə deyilir ki, belə neqativ hallar 2016-cı ildə də olub. Xatırladaq ki, Aprel müharibəsindən sonra da erməni əsgərlərin hərbi kitabçalarında döyüşlərdə iştirak etməsinə dair qeydlər olmurdu. Yalnız KİV-in qaldırdığı səs-küydən sonra düzəlişlər edilmiş və bu mövzu həmin dövrdə də qalmaqala səbəb olmuşdu.

**Məsələ ilə bağlı fikirlərini "Şərq"lə bölüşən siyasi-şərhçi Azər Həsrət bildirib ki, bu əməlləri ilə Ermənistan öz vətəndaşlarını Dağlıq Qarabağ ərazisində xidmət keçməsini dünyadan gizlətmək istəyir:** "Niyə? Ona görə ki, Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Bütün dünya, o cümlədən BMT Azərbaycanı məhz bu torpaqlar da daxil olmaqla tanıyıb. Təbiidir ki, belə olan halda hansısa xarici dövlətin, o cümlədən də Ermənistan əsgərlərinin bu torpaqlarda olması faktının özü qanun pozuntusudur və cinayət əməlidir. Ona görə də Ermənistan mümkün olan bütün vasitələrlə çalışır ki, öz vətəndaşı olan hərbi qulluqçularının bu ərazidə xidmət keçməsini gizlətsin. Məhz o səbəbdən də hərbi qulluqçularının hərbi biletlərinə guya bir sürücü kimi xidmət etməkləri ilə bağlı yüngüllüşləşdirici qeydlər edirlər. Yəni hardasa və nə vaxtsa bir araşdırma aparılarsa, yaxud da ki, gedib xarici ölkələrdən birində yaşayarsa və müəyyən məsələlərdə araşdırma aparılarsa, bəlli olsun ki, bunlar sadəcə sürücülük ediblər. Yəni müharibədə iştirak etməyiblər, ümumiyyətlə, döyüş yolu keçməyiblər və adam öldürməyiblər".



**"Ermənistan hakimiyyəti bir tərəfdən müharibə cinayətlərini ört-basdır edir, digər tərəfdən isə öz vətəndaşlarını susdurmaq istəyir"**

*Siyasi-şərhçi qeyd edib ki, bununla əslində Ermənistan dövləti özünün hərbi cinayətlərini ört-basdır etməyə çalışır:* "Eyni zamanda Ermənistan bu vəziyyətdən istifadə edərək öz vətəndaşlarına gərəkli imtiyazları təmin etməkdən yayınır. Hər kəsə bəllidir ki, Ermənistan dövləti iqtisadi cəhətdən çökmüş vəziyyətdədir. Müharibə isə ümumiyyətlə, onu çökdürüb. Təbiidir ki, belə olan halda döyüşmüş insanlara hansısa imtiyazların tanınması, təmin edilməsi çox çətin məsələdir. Ona görə də Ermənistan hakimiyyəti bir tərəfdən müharibə cinayətlərini ört-basdır edir, digər tərəfdən isə öz vətəndaşlarını susdurmaq istəyir".

**Aynurə Pənahqızı**

# “Hər kəsin cibində vəsiyyətini yazdığı kağız var idi”

**İkinci Qarabağ müharibəsi dövründə qələləmini süngüyə çevirənlər də az deyildi. Söhbət jurnalistlərimizdən gedir. Onlar Vətənin bircə çağırışı ilə çantalarını çiyinlərinə atıb cəbhəyə yollandılar.**

**Aralarında çağırışçı da var idi, könüllü də. Cavan da var idi, orta yaşlı da.**

**Amma ”Şərq”in növbəti müsahibi - ”Azərbaycan” qəzetinin əməkdaşı, baş leytenant Rəşad Baxşəliyevin dediyi kimi, istisnasız olaraq onların hər biri qəhrəman idi.**








*Rəşad bəy 1978-ci ildə anadan olub. BDU-nun Jurnalistika fakültəsini bitirdikdən sonra ordu sıralarına yollanıb. Və 2001-2003-cü illərdə leytenant rütbəsində, taqım komandiri vəzifəsində vətənə borcunu yerinə yetirib. 17 il sonra isə o, yenidən əlinə silah aldı, hərbi mundir geyindi. Gəlin, daha ətraflı qəhrəmanımızın öz dilindən oxuyaq:*

”İyul ayındakı Tovuz hadisələrindən sonra hərbi komissarlığa müraciət etdim və könüllü olaraq savaşa qatılmaq istədiyimi bildirdim. Oktyabrın əvvəlində zəng gəldi. O vaxt Ağdamın Quzanlı kəndində idim. Reportaj hazırlayırdım. Raket zərbələrinin, güllələrin altında telefonla danışırdım. Səs-küylə maraqlandılar. Vəziyyəti izah etdim. Dedilər ki, jurnalistlər onsuz da həmişə ön cəbhədə olublar. Beləliklə, ezamiyyətdən qayıtdıqdan sonra iş yoldaşlarımla sağollaşdım. Baş redaktorumuz, millət vəkili, Birinci Qarabağ müharibəsinin veteranı Bəxtiyar Sadıqov mənə öz tövsiyələrini verdi. Bloknot hədiyyə edib, söylədi: **”Rəşad, mən məğlubiyyət tariximizi yazmalı oldum, inanıram, sən sağ-salamat qayıdacaq və zəfər salnaməmizi yazacaqsan. Ona görə də imkan tapdıqca bloknotda qeydlər et. Onlar həyati əhəmiyyətli materiallar olacaq”.** İş elə gətirdi ki, mülki həyatdakı son günümdə qızımda xəstəlik aşkarlandı. Onu bir gündə dörd xəstəxanaya apardım. Demə, böyrək çatışmazlığı var imiş. Fəqət qala bilmədim. Vətən sevgisi üstün gəldi. Məni ”fərari” adlandıracaqlarından qorxurdum. Nəticədə övladımı iş yoldaşlarıma, o cümlədən baş redaktorumuza, onun müavini İxtiyar Hüseynliyə tapşırıb cəbhəyə yollandım. Sağ olsunlar, iş yoldaşlarım mənə qardaş kimi davrandılar, ”Gözün arxada qalmasın” dedilər.

## “Noyabrın 8-i xəbər gəldi ki, ciddi döyüşlər başlayacaq”

**Jurnalistin fikrincə, müharibədə döyüşləri bir-birlərindən fərqləndirmək olmaz:** ”Məni əvvəl Ağcabədiyə apardılar. Orada ayrı-ayrı hərbi hissələrə bölündük. Çox qəribə bir hadisə oldu. Vaxtı ilə xidmət etdiyim hərbi hissənin zabitləri taqım komandiri kimi məni seçdilər. Bunu yolda, onlardan hara getdiyimizi soruşanda bildim. Çoxları, o cümlədən dostlarımız məni qəhrəman kimi qiymətləndirirlər. Axı biz vətənlərini övladlarına dəyişməyənlər barədə ancaq bədii ədəbiyyatdan oxumuşuq. Amma orda olanda bildim ki, hər kəsin taleyi belə imiş. Komandiri olduğum şəxsi heyətdəki 27 əsgərin hər birinin bir gözü arxada idi - kimi xəstə valideynini, kimi övladını qoyub gəlmişdi. Hətta Rusiyada hər cür şəraiti olduğu halda, savaşa könüllü qatılan əsgərim də var idi. Görünür, Vətən sevgisi belə hissdir. Gör, vətən nə oğullar yetişdiribmiş...”.

**O, döyüş yolundan da danışıb:**

”Biz Qubadlının sol cinahı istiqamətində irəliləyirdik. Tapşırığımız irəlidə gedən xüsusi təyinatlı qüvvələrdən canını qurtaran, gizlənən erməniləri neytrallaşdırmaq idi. Düşmən hərbçiləri Ermənistanla sərhəddə idilər. Biz onları ya tamamilə ərazimizdən çıxarmalı, ya da məhv etməli idik. Çox ağır döyüşlərdə iştirak etdik, şəhidlər verdik. Yaralılar oldu. Amma döyüş tapşırığını uğurla yerinə yetirdik. Vətən sevgisi, əsgərlərin əzmkarlığı hər şeydən üstün oldu, bütün çətinliklərə qalib gəldi. Hər kəs bir nəfər kimi irəli gedirdi. Yüksəklikdən-yüksəkliyə keçdikcə daha çox ruhlanırdıq. Biz ən yüksək təpəliklərin birində - Qubadlı dağlarında idik. Bu dağlar çox çətin relyefə malikdir. Lakin aşağıdakı əsgərlərimiz bizə hər gün təminat gətirir, ac, susuz qalmağımıza imkan vermirdilər. Onları görən kimi bağrıma basırdım. İnanın, heç də bizdən az yorulmurdular. Noyabrın 10-dək burada qaldıq. Sonra isə yüksəkliyi başqa bir hərbi hissəyə təhvil verib, istiqamətimizi dəyişdik”.

**R.Baxşəliyev qələbə xəbəri gələn an yaşadıqlarını belə xatırlayır:**

”Noyabrın 8-i xəbər gəldi ki, ciddi döyüşlər başlayacaq. Hamımız sipər almalı idik. Hətta bir-birimizlə vidalaşdıq, halallaşdıq. Hər kəsin cibində vəsiyyətini yazdığı bir kağız parçası var idi. Gecə saatlarında biz atışma gözləyərkən havaya qırmızı işartılı güllələr atıldı. Hamımız təəccüblə bir-birimizə baxdıq. Axı bunu kim edə bilərdi?!



Belə bir hərəkət briqadanın yerini düşmənə bildirmək deməkdir. Bir az keçəndən sonra yenə güllələr atıldı. Bu dəfə daha intensiv. Ardınca hərbi-feldşerimiz Emin Zeynalovun azan səsi gəldi. Düzdür, yaxşı avazı olduğunu bilirdik. Lakin heç vaxt ondan belə azan eşitməmişdik. Səsi dağlarda əks-səda verdikcə ruhumuz sakitləşirdi.

## “Azərbaycan!” nidaları Qafan ərazisindən də gəlirdi



Sonradan məlum oldu: sən demə, düşmən təslim olubmuş və Prezident, Ali Baş Komandan İlham Əliyev Ermənistanın kapitulyasiyası barədə xalqa çıxışında məlumat veribmiş. Çox sevindik. Əsgərlər ”Azərbaycan!”, ”Azərbaycan!” deyə qışqırırdılar. Düzü, narahat idik, onları sakitləşdirməyə çalışırdıq. Çünki ermənilər səs eşidib, təxribat törədə bilərdilər.

Amma qəribə olan bilirsiz nədir? ”Azərbaycan!” nidaları bir az aralıdan - Qafan ərazisindən də gəlirdi. Hərbi-siyasi hakimiyyətin məcburiyyəti ilə əllərinə silah alan erməni gəncləri bizdən çox sevinirdilər. Yanvarın 2-də baş leytenant kimi tərxis olundum. Dövlət başçısının müvafiq Fərmanı ilə ”Qubadlının azad olunmasına görə” medalı ilə təltif edildim.

Bəlkə də Allah qızımın müalicəsi ilə məşğul olum və birdə gördüklərimi yazım deyə, şəhadətə qovuşmağıma icazə vermədi. Ancaq hər an Vətənimi müdafiə etməyə hazıram. Bu, bizim müqəddəs, əbədi və dəyişməz borcumuzdur”.

**Kənan Novruzov**



# Minaya düşərək şəhid olan əsgərimiz Qusarda dəfn olunub

**Yanvarın 21-də minaya düşərək şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Qusar rayonunda dəfn olunub.**

APA-nın şimal bürosunun verdiyi məlumata görə, əsgər Cavadov Rəşad Fərzəli oğlunun nəşi Qusar rayonuna aparılıb. Şəhid doğulduğu Hil kənd qəbiristanlığında torpağa tapşırılıb.

Şəhidlə dəfn mərasimində Qusar Rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər və rayon ictimaiyyəti iştirak edib.

**Allah rəhmət eləsin!**

# 280 nəfər yoluxub, 11 nəfər vəfat edib

## Azərbaycanda son sutkada 632 nəfər koronavirusdan sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 280 yeni yoluxma faktı qeydə alınıb, 632 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 228 526 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 219 019 nəfər müalicə olunaraq sağalıb, 3 064 nəfər vəfat edib, aktiv xəstə sayı 6 443 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 144, ötən müddət ərzində isə ümumilikdə 2 347 951 test aparılıb.*

# Cəlilabadda ər həyat yoldaşını qətlə yetirib



**Cəlilabadda ər həyat yoldaşını qətlə yetirib. APA-nın cənub bürosunun verdiyi məlumata görə, qətl hadisəsi rayonun Uzuntəpə kəndində baş verib.**

Qədirağa Mirzəyev adlı şəxs həyat yoldaşı Yəmən Mirzəyevanı küt alətlə qətlə yetirib. Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə baxış keçirilib.

Qətli törətməkdə şübhəli bilinən Q. Mirzəyevin ruhi-əsəb xəstəliklərindən əziyyət çəkdiyi bildirilir.

# Əmrah illərin döyüşçüsü kimi savaşıb

## Düşmənin səngərinə qaçaraq qumbaranı partladıb, 10 ermənini gəbərdib







Vətən savaşında şəhadətə ucalan igidlərimizin hərəsi bir dastan, bir salnamədir. Yarım qalan hekayələri, az, amma əbədi ömürləri, Vətənə fəda etdikləri canları var. Çox danışıb, çox yaza bilərik onlardan. Heç yorulmarıq, sözümüz də tükənməz.

Bəli, yenə də şəhidlərimizdən birindən, onun həyatından, şücaətindən bəhs edəcəyik. O, Əmrah Şahid oğlu Əkbərovdur.

İyirmi bir fevral 1998-ci ildə Lerik rayonunda dünyaya göz açıb. Yəni cəmi 22 il ömür yaşayıb. 2004-cü ildə orta məktəbə başlayıb. Cəmşid Naxçıvanski adına hərbi liseyə 2013-cü ildə qəbul olunub. 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbinə daxil olan Əmrah, 2020-ci ildə qoşun kəşfiyyatı ixtisası üzrə təhsilini başa vurur.

*Leytenant rütbəsi alıb, təməl komanda kursunu keçmək üçün Xüsusi Təyinatlı qüvvələrə ezam olunur. Sonra N saylı hərbi hissədə baş kəşfiyyatçı kimi xidmətə başlayır.*

*Hekayənin sonu bildiyimiz kimidir: Əmrahın döyüş yolu və şəhadəti.*

Qəhrəmanımız Kəlbəcər, Füzuli və Cəbrayılın azad edilməsində xüsusi igidlik göstərib. Oktyabrın 12-si Hadrut uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Qardaşı Orxan danışır ki, Əmrahın ən böyük arzusu elə şəhid olmaq idi: ”Dayısı deyirdi, səni general kimi görmək istəyirəm. O isə belə cavab verirdi: ”Dayı, mən Generaldan da böyük zirvəyə ucalacam. Şəhidlik zirvəsinə” arzusuna da çatdı. Savaş başlayandan Əmrah və qrupu Cəbrayıl, Zəngilan, Füzuli uğrunda döyüşdülər. Silahdaşlarının sözlərinə görə, Əmrah 22 yaşlı gənc kimi vuruşmayıb. İllərin döyüşçüsü kimi savaşıb. Sanki şir ürəyi yeyibmiş”.

Orxan qardaşının şəhadət şərbəti içdiyi anları belə nəql edir: ”Əmrahgilin qrupu düşmənin 3 döyüş texnikasına pusqu qurub, maşını və içindəkiləri məhv edirlər. Yerdə qalan mənfurlar da qaçırlar. Nəzərə alsaq ki, onlar o yerləri daha yaxşı tanıyır. Ona görə tezliklə özlərinə mövqe tapa bilirlər və qızğın döyüş başlayır. Əmrah son üç yoldaşından ikisinin şəhid, birinin isə yaralı olduğunu görür. O da sağ qalar, ya yox, bilinmir. Əmrah gücünü toplayıb ermənilər yerləşən səngərə tərəf qaçmağa başlayır. Çatanda sonuncu qumbaranı açaraq özünü partladır. Şəhadətə ucalarkən 10 ermənini də gəbərdir”.

Orxan deyir, Əmrah onun həm qardaşı, həm də sirdaşı olub:

”Ondan danışanda bilmirəm hardan başlayım. Çünki 22 illik ömrü elə yaşayıb ki, saatlarla, günlərlə bəhs etsəm, bitməz. Ona həyatda ən yaxın adam idim. Qardaşımın üzündə o qədər doğmalıq var ki... İnanın respublikanın dörd bir yanından Əmrahı tanımayan adamlar yazır, zəng edir. Deyirlər, çox doğma görünür. Ümumiyyətlə, bütün şəhidlərimizin üzündən seçilmiş insan olduqları bəllidir. Əmrah da onlardan biridir”.

**Əslində Orxanın özü də hərbçidir. O da Vətən savaşında iştirak edib. Deyir, Əmrahla döyüş zamanı yalnız bir dəfə danışdıq:**

”O zaman çox yorğun idim. Lakin qardaşımın səsini eşidəndən sonra mənə güc gəldi. Özü də gözləmədiyim bir anda zəng etdi. Təkcə dedi ki, salamatçılıqdı, narahat olma. Müharibə müddətində ilk və son dəfə o gün soraqlaşdıq. Sonra şəhidlik xəbərini eşitdim. Təxliyyə etdilər, gəldim evə. Bəlkə də Əmrah hansısa bir qəzada həlak olsaydı, onun itkisinə dözə bilməzdim. Mənə təsəlli verən qardaşımın şəhidliyidir. Silahdaşları, zabit yoldaşları hamısı deyir ki, o, arzusuna çatdı. Onun niyyəti şəhid olmaq idi”.





**Orxan deyir, Əmrah çox güclü idi. Həm xaraktercə, həm də fiziki cəhətdən möhkəm imiş:**

”Ona o qədər güvənirdim ki, yanımda olsa, bir ordunun qarşısına çıxardım. Şəkilləri var, yazıb ki, Vətən üçün veriləcək canın yoxdursa, sus. Onu da qeyd edim ki, biz bir il eyni məktəbdə oxumuşuq. Qısa müddət də olsa zabit yoldaşı olduq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların sayəsində rahat danışa bilirik. Torpaqlarımız işğaldan azad olundu. Bu işdə əməyi keçən hər kəsdən Allah razı olsun”.

**Və Orxan qardaşı ilə xatirələrini yada salır:**

”Bir dəfə təlimə gedirdik. Yol boyu söhbət elədik. Dedim qardaşım, inşallah təlimə deyil, Vətən savaşına yollanırıq. Onun dinləmə mədəniyyəti vardı. Sona qədər qulaq asdı. Mən də davam edirdim, deyirdim birdən o vədə yetişəndə qorxarsan. Bilirəm, sən elə insan deyilsən. Ümumi danışıram, heç vaxt çəkinmə, yoldaşını darda qoyma. Dəlilik də eləmə, məntiqli davran. İndi o söhbət yadıma düşəndə deyirəm ki, mən kimə qorxu ilə bağlı nəsihət vermişəm. Onun lüğətində qorxu hiss olmayıb. Əmrah Xüsusi Təyinatlı Qüvvələrin igid zabiti idi. Əvvəl bu yolu seçməyini istəmirdim, deyirdim mən ordayam, sən başqa istiqamətlə get. Hazırda düşünürəm, yaxşı ki XTQ olub, arzusuna çatmış şəkildə şəhadətə ucalıb”.

*Qardaşı sözünü qurtarır. Danışmaq sırası məndədir. Böyük vəzifəni yerinə yetirən bir insan kimi mənim də deyəcəklərim var. Şəhid Əmrah Əkbərovu instaqram səhifəsindən tanıyıram. Bir müddət öncə görüb, izləməyə başladım. Orxan bəyin sözünə qüvvət, fotosuna baxanda elə bildim ki, yaxınım, doğmamdır. Niyə ondan yazmaq üçün bu qədər gözlədim. Bilmirəm. Bəlkə də məndən yaşca iki il, məqamca qat-qat böyük olan bu qəhrəmandan yazmağa cəsarətim yox idi. Xülasə işimi tamamladım. İndi igid Əmrahı siz tanıyın...*

**Samirə Ərəbova**

# Ermənistandan ən böyük köç indi başlayacaq

## Çünki ölkənin artıq heç bir iqtisadi, siyasi perspektivi mövcud deyil

**Erməni türkoloq Varujan Qeqamyan yaxın aylarda Ermənistanda 5 qaçılmaz hadisə baş verəcəyini qeyd edib. O bildirib ki, ilk növbədə ölkədə dərin iqtisadi böhran, xüsusilə yerli istehsal çökəcək və büdcə azalacaq.**

Həmçinin Qarabağa ermənilərin köçürülməsinin tədricən zəifləməsi, nəticədə oranın Azərbaycan bölgəsinə çevrilməsi, ordunun ixtisarı, özünümüdafiə mexanizminin ləğv edilməsi gözlənilir. Qeqamyan bildirib ki, bununla da ölkədən kütləvi mühacirət başlayacaq.

*Ermənistandakı demoqrafik vəziyyətə münasibət bildirən AĞ Partiyanın sədrinin müavini, politoloq Əhəd Məmmədli ”Şərq”ə açıqlamasında Varujan Qeqamyanın dediklərində həqiqət olduğunu vurğulayıb. O bildirib ki, onsuz da Ermənistan müstəqilliyini əldə edəndən bəri ölkədə güclü köç var idi:* ”Onların istər Rusiya, istər Amerika, istərsə də Avropa ölkələrinə mühacirəti görünməkdə idi. Onlar üçün məğlubiyyətlə nəticələnən İkinci Qarabağ müharibəsindən sonra bu məsələ ümumiyyətlə, daha da genişlənəcək, dərinləşəcək. Çünki 30 ildə şahid olduq ki, onlar işğal etdikləri əraziləri doldura bilmədilər. Özləri qısa bir ərazidə yaşayırdılar. Yəni maksimum halda o ərazilərdə 60-70 min əhali yaşayırdı, ya da yox. Yəni ermənilər oranı belə doldurmaq gücündə deyildilər”.



*Ə.Məmmədli vurğulayıb ki, hətta Ermənistanın özündə belə özləri yarızarafat və yarıciddi deyirlər ki, orada erməni qalmayıb:* ”Krasnodar vilayətində ermənilər Ermənistandan bəlkə də çoxdur. Ona görə də hesab edirəm ki, bu proses günbəgün dərinləşəcək. Məlum olduğu kimi, ölkənin artıq heç bir iqtisadi, siyasi perspektivi mövcud deyil. Əvvəllər ”Artsax” nağılı ilə insanların başını aldadırlar, indi artıq o nağıl da yoxdur. Təbii ki, iqtisadi və siyasi perspektivi olmayan və korrupsiya içində boğulan bir ölkədə gənclər niyə qalmalıdır ki ? İkinci Qarabağ müharibəsindən sonra Rusiyanın tam nəzarəti altına keçərək, artıq Rusiyanın vassal ölkəsi və protektaratıdır. Təbii ki, belə bir ölkədə bacarıqlı və savadlı gənclər daha yaxşı həyat üçün başqa ölkələrə getməyə çalışacaqlar”.

**Aynurə Pənahqızı**

# “Diaspora emosionallığı sevmir, ağıllı olmalıyıq”

## Türkan Həsənova: “Ermənilərin təxribat xarakterli hərəkətlərinə aqressiya ilə cavab verməməliyik”



İkinci Qarabağ müharibəsində eyni ilə "Yaşa, mənim xalqım" mahnısında deyildiyi kimi, bir olduq, birlik olduq...Dünyanın ayrı-ayrı ölkələrində yaşayan soydaşlarımız əl-ələ verdilər. Və bir də baxdıq ki, milyonlarla azərbaycanlının əli "Dəmir yumruğa" çevrilib düşmənin başını əzdi, belini qırdı. İstisnasız olaraq planetin bütün nöqtələrində yaşayan həmvətənlərimiz eyni ilə vətəndəkilər tək həyəcanlanırdılar. Xüsusilə də diaspor fəaliyyətilə məşğul olanlar. İtaliyada yaşayan həmvətinimiz, oradakı "Həmrəy olaq" aksiyasının sədri Türkan Həsənova da məhz belə fəallardandır. O, müharibə dövründə haqq səsimizin dünyaya çatdırılması naminə çox ciddi çalışıb.

*”Şərq” qəzeti Türkan xanımla həmsöhbət olub:*

**- Azərbaycanın qələbəsini necə qiymətləndirirsiniz?**

- Bu, sözün əsl mənasında tarixi zəfərdir. Çünki döyüşən yalnız Azərbaycan hərbçiləri, uduzan ancaq düşmən ordusu deyildi. Biz həm döyüş meydanında, həm də adətən onlardan geri qaldığımız informasiya müharibəsində qalib gəldik. Bütün cəbhələrdə qələbə qazandığımıza görə, bu zəfər bizim üçün ikiqat əhəmiyyətlidir. Bu uğurda, həm Prezident, Ali Baş Komandan İlham Əliyevin, həm Silahlı Qüvvələrimizin, həm də xalqın payı var. Odur ki, qazandığımız qələbəni yüksək qiymətləndiririk. Yaxın gələcəkdə isə, xüsusilə Qarabağımızın yenidən qurulması, inkişafı və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məsələlərində daim ölkəmizə və dövlətimizə dəstək olmalı, həmin proseslərdə yaxından iştirak etməliyik.

**- Bu dövrdə İtaliyada Azərbaycan həqiqətlərinə münasibət necə idi?**

- Bildiyiniz kimi, bir il əvvəl Prezident İlham Əliyevin İtaliyaya səfəri olub. Görüşün nəticəsində iki ölkə arasındakı dostluq, iqtisadi və siyasi əlaqələr daha da möhkəmlənib. İtaliya dövləti Azərbaycanı regionda əsas tərəfdaşı olaraq görür və, əlbəttə, ərazi bütövlüyünü dəstəkləyir. Elə bu səbəbdən İtaliyadakı erməni icması yüksək qurumlara təsir göstərə bilmədiyi üçün şəhər bələdiyyələrinə üz tuturlar. Bəzi şəhər bələdiyyələri onları dəstəkləsələr də, bu məsələni daha yuxarı qurumlara qaldıra bilmirlər. Təəssüf ki, əhalinin əksəriyyəti məsələlərdən xəbərdar deyil. İnsanlar məlumatsızdırlar. Biz əlimizdən gələn qədər hər vasitə ilə həqiqətləri çatdırmağa çalışırıq. Buna misal olaraq deyə bilərəm ki, müharibə dövründə könüllü qurduğumuz komandamızla Azərbaycan həqiqətlərini İtaliya əhalisinə çatdırmaq üçün sosial şəbəkələrdə yerli dildə mütəmadi yazılar yazırdıq. Qarabağ mövzusu ilə bağlı keçirilən tədbirlərdə iştirak edirik. Qarşımıza çıxan hər kəsi bu mövzu ilə bağlı məlumatlandırırıq. Venesiya şəhərində müharibə dövründə ”Qarabağ həqiqətləri” adlı informasiya sərgisi keçirdik. Üç saat çəkən aksiyanın ”Sual ver” hissəsində yüzdən çox insanı məlumatlandırdıq. Hazırladığımız materialın linkinin QR kodu ilə insanlar daha geniş bilgi əldə edə bilirdilər. Xocalı, Gəncə və Bərdədə olan hadisələrdən danışanda iki italyan qadın ağladı. Başqa biri ”Erməni dostum həmişə onlara edilən soyqırımdan danışır, gör özləri sizə nələr edibmiş” dedi. Biz yaxın zamanda Diaspor Komitəsinin dəstəyi ilə İtaliyanın müxtəlif şəhərlərində bu layihəmizi davam etdirəcəyik.



**- Belə məsələlərdə diasporun fəaliyyəti nədən ibarət olmalıdır?**

- Bu dövrdə diasporun fəaliyyəti çox önəmlidir. Əsas iki istiqamət var: Erməni icmasının addımlarını izləmək və onu düzgün analiz edib, lazımi cavab vermək. İkinci məsələ isə xaricdə yaşayan öz icmamıza güclü nəzarət etməkdir. Çünki kimsə hirsindən, əsəbindən doğru addımlar atmayaraq Azərbaycanın imicinə zərər verə bilər. Yəni belə fəaliyyət növü emosionallığı sevmir. Əksinə, soyuqqanlı olmalıyıq. Bizim diaspor Azərbaycanda həmin həssas qrupdan olan insanlara, o cümlədən gənclərə güclü nəzarət etməlidir. Çalışmalıdır ki, atılan addımlar planlı və koordinasiyalı olsun. İstər yazılanlar, istər təşkil olunan etiraz və ya dəstək nümayişlərinin keçirilməsi planlanmış və vahid strategiya ilə tənzimlənməlidir. Yəni parçalanmış şəkildə olarsa, effektli nəticə verməyəcək. Həmçinin kimlərinsə satılması ehtimalı da mütləq daim nəzərə alınmalıdır.

**- Azərbaycan diasporunun 44 günlük müharibədəki fəaliyyətini necə dəyərləndirirsiniz?**

- Tarixə qızıl hərflərə yazılmış bu 44 gündə biz eyni zamanda xaricdə ən böyük həmrəyliyimizi yaşadıq. Bu bizə bir daha diaspor fəaliyyətinin nə qədər mühüm olduğunu göstərməklə yanaşı, həm də son illərdə diasporumuzun necə inkişaf etdiyini göstərdi. Başda Diaspor Komitəsi olmaqla, bütün fəallar əllərindəki imkanlardan yararlanaraq Azərbaycan həqiqətlərini dünyaya çatdırdılar. Biz də həmin dövrdə Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsi ilə mütəmadi əlaqədə idik. Komitə bizə fəaliyyətimiz üzrə lazımi istiqaməti verir, görülən işlərdə yaranan maddi çətinliklərdə də dəstək olurdu. Onlar müharibədən sonrakı mərhələdə də, yəni noyabr ayında şəhid və qazi ailələri üçün başlatdığımız ”Həmrəy Olaq” adlı xeyriyyə aksiyasında da bizə dəstək oldular. Diaspor təşkilatları və fəallarla ilə birləşərək gözəl bir işə imza atdıq. Nəticədə xaricdə yaşayan azərbaycanlılar olaraq 40-dan çox şəhid və qazi ailələrinə müxtəlif istiqamətlər üzrə yardımlar etdik. Beləliklə, həmin insanları düşündüyümüzü, onların bizim diqqətimizdə olduğunu göstərdik.

**- Bildiyimiz kimi, erməni diasporu və lobbisi hər vəchlə dünya ictimaiyyətinə təsir etməyə, çaşqınlıq yaratmağa çalışırdı. Və etiraf edək ki, bunu bəzən də bacarırdı. Belə təxribatların qarşını almaq üçün Azərbaycan diasporu hansı adekvat tədbirlər görməli, necə davranmalıdır?**

- Bilirsiz, gərək düşmən də mərd olsun. Bizim düşmənimiz namərd, hiyləgər və yalançıdır. Bunu böyüklərimizdən eşidirdik, amma indi deyilənlərin nə qədər doğru olduğuna əmin olduq. Mən özüm dəfələrlə oxşar təxribatlara şahidlik etdim. Biz diaspor olaraq ağıllı olmalı, təxribata getməməliyik. Ermənilərin hiyləgərliklərinə qarşı ayıq davranmalıyıq. Dediyim kimi, diaspor nümayəndələri erməni icmasının fəaliyyətini yaxından izləməli və doğru addımlar atmalıdırlar. İnsanlarımız səbirli və təmkinli davranmalıdırlar. Bəzi ölkələrdə, məsələn, ABŞ, Hollandiyada məsələ o yerə çatmışdı ki, Azərbaycan və erməni icmaları arasında dinc münaqişə böyüyəcəkdi, hətta bir-birilərinə qarşı zor tətbiq edə bilərdilər. Əslində bir-iki belə hadisə baş verdi. Biz bu cür hallardan çəkinməliyik. Ermənilərin təxribat xarakterli hərəkətlərinə aqressiya ilə cavab verməməliyik. Əks halda düşmən bunu öz xeyirləri üçün istifadə edərək ölkəmizin beynəlxalq imicinə zərər verə bilər. Azərbaycan diasporu xaricdə yaşayan icmalarına nəzarət etməli, bu məsələlərlə bağlı onları maarifləndirməli, düzgün istiqamət verməlidir ki, yanlış addımlar atılmasın.

**Kənan Novruzov**

## Putin Təhlükəsizlik Şurasının iclasını keçirib

### Strateji sabitlik, eləcə də ölkə daxili problemlər müzakirə edilib



**Rusiya Prezidenti yanında Təhlükəsizlik Şurasının daimi üzvlərinin videokonfrans formatında iclası keçirilib.**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov bildirib.

O, Prezident Vladimir Putinin iclasda Təhlükəsizlik Şurasının daimi üzvləri ilə strateji sabitlik, eləcə də ölkə daxili problemləri müzakirə etdiyini qeyd edib.

”İclasda Rusiyanın sosial-iqtisadi inkişafına dair gündəmdə duran məsələlər müzakirə olunub. Strateji sabitlik və silahlanma üzərində nəzarət məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb”, - deyə Kremlin sözçüsü vurğulayıb.

## Ermənistan Qarabağda döyüşən muzdluların pulunu ödəyə bilmir



**Ermənistan hökuməti işğalçı ölkənin ordusunun tərkibində Qarabağda döyüşmüş muzdluların pulunu ödəyə bilmir.**

”Report” xəbər verir ki, məlumatı ”Sputnik Armeniya” yayıb.

Həmin muzdluların bir qrupu yanvarın 22-də Ermənistan Müdafiə Nazirliyinin binası qarşısında aksiya keçiriblər. Onlar vəd edilən pulun ödənilməməsinə aydınlıq gətirilməsi tələb ediblər.

David Ovannisyan adlı aksiya iştirakçısı bildirib ki, döyüşlərin ilk günündən Qarabağa gedib: ”Noyabrın 30-da Qarabağdan gəlmişəm. Dövlətin cəbhədən qayıdanlara müəyyən məbləğ ödədiyini biləndən təzminat almaq üçün komandanlığımız da daxil olmaqla müxtəlif orqanlara müraciət etsəm də, heç bir cavab almamışam. Dekabrın 28-də biz Müdafiə Nazirliyinə getmişdik. Bizə dedilər ki, kompensasiyaların hamısı dekabrın 30-da köçürüləcək. Dekabrın 30-da isə pullar köçürülmədiyi üçün hökumətə müraciət etməyə məcbur olduq. İndiyədək problem həll olunmayıb”.

*Onun sözlərinə görə, hökumət 2 700 muzdluya (Ermənistanda onlara könüllü deyirlər - ”Report”) vəd etdiyi pulu ödəməyib.*

## Qapılar açılır

### Əcnəbi vətəndaşların Gürcüstana daxil olması asanlaşdırılacaq



**Xarici ölkə vətəndaşlarının Gürcüstana daxil olması qaydalarının sadələşdiriləcəyi gözlənilir.**

”Report”un yerli bürosu xəbər verir ki, bu barədə Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf naziri Natia Turnava bildirib.

Onun sözlərinə görə, müxtəlif ölkələrdən Gürcüstana səfər edənlərin ölkə ərazisinə daxil olma rejiminin asanlaşdırılması ilə bağlı müzakirələr aparılır: ”Ümid edirik ki, yaxın gələcəkdə - yaz mövsümündə bütün qaydalara əməl olunmaqla çox sayda əcnəbi ziyarətçiləri qəbul edə biləcəyik. Gələn həftə turoperatorlar və turizm şirkətlərinin nümayəndələri ilə səfərlərin təhlükəsizliyinin təmin olunması ilə bağlı görüş nəzərdə tutulub”.

*Qeyd edək ki, fevralın 1-dən Gürcüstanda bütün istiqamətlər üzrə müntəzəm aviauçuşlar bərpa olunacaq.*

# İctimai və dövlət maraqlarının müdafiəsi



# Bakının nəqliyyat problemi həll olunmur

## SMS icazələr ləğv edildi, paytaxtda böyük sərnişin sıxlığı yaşanır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Həyat normal, alışdığımız gündəlik qaydasına düşür. Virusa yoluxma sayındakı müsbət dinamika, sağalanların sayının yoluxanların sayını üstələməsi, ölüm sayının da minimuma enməsi insanların üzünü güldürür və gələcəyə ümidləri, inamı artırır. Müşahidə edilən bu müsbət tendensiyanın yaranması əsasən dövlətin qəbul etdiyi qərarlara bağlıdır.

Bugünkü vəziyyət göstərir ki, Azərbaycan dövləti, pandemiyanın mümkün təsirlərini azaltmaq məqsədilə Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargahın timsalında düzgün qərarlar qəbul edib. Hər nə qədər biz vətəndaşlar müəyyən hallarda narazılıq etsək də, qərarların məhz vətəndaşların mənafeyinə hesablandığını etiraf etməliyik. Əlbəttə ki, bu məsələdə dövlət maraqlarının nəzərə alınması da vacibdir. Artıq hər kəsə məlumdur ki, koronavirusa yoluxmuş bir insanın müalicəsi üçün dövlət nə qədər vəsait xərcləyir. Ona görə də qəbul edilən qərarlarda əsas istiqamət yoluxmanın qarşısını almaq, daha az insanın yoluxmasına nail olmaqdır. Buna nail olmaq üçün də ölkə üzrə tətbiq edilən xüsusi karantin rejimi mərhələli şəkildə yumşaldılır. Operativ Qərargah keçirdiyi brifinqlər zamanı bu barədə bəyan edirdi, bildirirdi ki, xüsusi karantin rejiminin yumşaldılması və nəhayət tamamilə ləğvi pandemiyanın dinamikasından asılı olacaq. Qərarlar vəziyyət nəzərə alınaraq dəyişəcək. 2021-ci ilin ilk sevindirici xəbəri bu oldu ki, yanvarın 18-dən xüsusi karantin rejimində bəzi yumşalmalara gedildi. SMS icazə və e.gov.az portalı vasitəsilə icazə sistemləri ləğv edildi, kosmetik xidmət göstərən salonlar açıldı. Yanvarın 25-dən isə kafe və restoranların, kiçik ticarət obyektlərinin fəaliyyəti bərpa ediləcək. İri ticarət mərkəzləri, "moll"arın fəaliyyətinə isə hələ icazə verilmir. Həmçinin təhsil müəssisələrində də əyani dərslərə hələ başlanmır. Lakin qısaca əlavə edək ki, Təhsil Nazirliyi də fevralın 1-dən etibarən əyani dərslərin mərhələli şəkildə bərpasının mümkünlüyünə dair anons verib. Deməli, həqiqətən də yaza doğru həyatın yavaş-yavaş axarına düşəcəyinə ümidlər böyükdür. Qalır, bircə nəqliyyat problemi! Nə sirdisə, bu məsələ heç cür həllini tapmır.

### Avtobuslarda sıxlıq davam edir

Vəziyyət belədir: Pandemiyanın ilk vaxtlarında metrosuzluğu kompensasiya etmək və ictimai nəqliyyatın yerüstü növünə tələbatı ödəmək məqsədilə "metro-ekspress" avtobuslar xəttə buraxıldı. İlk vaxtlarda "M1", "M2" avtobuslar üzərlərinə qoyulan vəzifəni yerinə yetirdilər. Bu vəziyyət SMS icazə sistemi qüvvədə qaldığı vaxtlara aiddir. Elə ki, SMS icazə müəyyən mərhələdə ləğv edildi, yenə avtobuslarda sıxlıq yarandı, sərnişinlər arasında narazılıqlar artdı. Hər kəsi bu sual düşündürürdü ki, metro yoluxma olmasın deyə qapadılırsa, avtobuslardakı bu sıxlıq yoluxmanı artırmırmı? Sualın belə bir cavabı da var; metro qapalı məkandır, süni havalandırma sistemi ilə işləyir, ona görə yoluxma riski artıqdır. Qəbul edirik. Bəs avtobuslarda sosial məsafənin sıfıra enməsi, kondisionerlərin işləməsi yoluxma riskini eynilə artırmırmı? Bəlkə, yoluxma sərnişinlərin heç o qədər də eyninə gəlmir. Sərnişinlər sadəcə, rahat, gecikmədən mənzil başına və ya iş yerinə çatmaq istəyir və bu, onların hüququdur. Nisbətən müsbət mənzərə paytaxtda komendant saatı tətbiq ediləndə göründü. Bakı Nəqliyyat Agentliyi xətlərdəki əlavə avtobusların sayını artırdı, sərnişinlərin vaxtında mənzil başına çatdırılması təmin edildi. Lakin komendant saatı ləğv edilən kimi xəttə buraxılan əlavə avtobuslar da "buxarlandı". "Baku Buss" şirkəti də nədənsə, "M1"ləri kartsız avtobusların öhdəsinə verdi. Bu avtobus sürücüləri isə özlərini külli ixtiyar sahibi hesab edir. "M1" və "M1-a" avtobuslarda "ekspress" anlayışı sıfırdı. Bütün dayanacaqlarda saxlayır, sərnişin toplayır, 1 saatlıq yolu 2 saata qət edirlər. "M2"lər də 15-20 dəqiqə intervalla gəlir. Yenə sərnişin sıxlığı və narazılıq müşahidə olunur. Xüsusilə də yanvarın 18-dən etibarən SMS icazə sisteminin ləğvi ilə artan sərnişin sayı fonunda. Maraqlıdır ki, Bakı Nəqliyyat Agentliyi sərnişin sayının artdığını etiraf edir. Amma avtobusların gecikməsini yollardakı tıxaclara bağlayır. Avtobuslararası intervalın çox olmasının, "Baku Buss M1"lərin hara "buxarlanması"nın, kartsız, əlavə xətt avtobusları sürücülərinin niyə "bezpredel"lik etməsinin üzərində isə dayanmır. Bu vəziyyət nə qədər davam edəcək?

### BNA sərnişin artımını etiraf edir, lakin...

Bakı Nəqliyyat Agentliyinin Mətbuat katibi Mais Ağayev qeyd edib ki, ölkə ərazisində xüsusi karantin rejiminin yumşaldılmasından sonra paytaxtdakı marşrutlarda sərnişin sayı artıb. Bu da əsasən Bakıda tətbiq edilmiş sms-icazənin ləğv edilməsi ilə bağlıdır: "Ümumiyyətlə, ölkədə istər sərt karantin rejiminin tətbiqi, istərsə də karantin şərtlərinin yumşaldılması zamanı əvvəlcədən hazırlanmış nəqliyyat planına uyğun olaraq addımlar atılır. Yanvarın 18-dən etibarən ölkədə sms-icazə sisteminin ləğv edilməsi ilə bağlı məlumat daxil olan kimi yenidən nəqliyyat üzrə işlər təşkil olundu, yanvarın 18-də sms - icazə ləğv edilən gün Bakıda sərnişin sayında 12 faiz artım oldu. Yanvarın 18-i ilə əvvəlki həftənin eyni gününü müqayisə edərkən, sərnişin sayında 200 min nəfər artım olub. Amma buna baxmayaraq, sərnişin daşınmasında hansısa ciddi narazılıq müşahidə olunmadı. Çünki əvvəlcədən plana uyğun olaraq həm marşrut xətlərindəki avtobusların, həm də ehtiyat avtobusların sayı artırılmışdı. Ona görə də həmin gün sərnişin sıxlığı ilə bağlı hansısa problem olmadı. Yanvarın 25-dən etibarən Bakıda əksər xidmət və ticarət obyektləri fəaliyyətini bərpa edəcək. Bunun üçün də növbəti həftə üçün yeni nəqliyyat planı hazırlanır. Plana uyğun olaraq xətdə və ehtiyatda olan avtobusların sayı müəyyən edilir, ekspres avtobusların intervalı da buna uyğun olaraq hesablanacaq".

### Metronun qapılarını üzümüzə elə bağlayıblar ki, sanki bir də açılmayacaq

### Metro niyə tələbələri gözləyir?

Hər nə qədər çalışdımsa, metro ilə bağlı mərhum aktyorumuz Fazil Salayevin ifasındakı komik səhnəcikdən yan keçə bilmədim. Bəziləri xatırlayır bəlkə. Aktyorun canlandırdığı sərxoş sərnişini milisioner metroya buraxmır. Sərnişin soruşur; "orda vaqonların biri gedir, biri gəlir, hə?" Milisioner təsdiqləyir. Sərnişin sonra eskalatorun hərəkətini soruşur; adamlar aşağı enir, yuxarı qalxır, hə?". Milisioner, bu dəfə təəccüblə, vətəndaş, siz heç vaxt metroya minməmisiniz?!. Rəhmətlik də fağır-fağır, həm də ah çəkərək həsrətlə "qoyursunuz ki?!" deyir. Pandemiya başlanandan biz metro istifadəçilərinin halı rəhmətlik Fazil Salayevin sərxoş sərnişininin halı ilə eynidi. Sanki bu şəhərdə metro adlı nəqliyyat vasitəsi yerlidibli olmayıb. Metronun qapılarını üzümüzə elə bağlayıblar, sanki bir də açılmayacaq. Yəni qərar qəbul edənlərin avtobuslardakı sıxlıqdan, basabasdan xəbərləri yoxdur? Yerüstü nəqliyyatın yükünü metro ilə paylaşmağı niyə təkidlə istəmirlər? Bu gün (yanvarın 22-si) təhsil naziri orta məktəblərdə dərslərin fevralın 1-dən başlanacağını deyib, ali məktəblərin də fevralın 15-dən tələbələri qəbul edəcəyi ehtimalını irəli sürüb. Bu xəbərlə bərabər metropolitenin də fəaliyyətini bərpa edəcəyi proqnozları gəlməyə başlayıb. Belə çıxır ki, metronun fəaliyyəti tədrisə bağlıdır. Şagirdlər, tələbələr dərslərə başlayacağı təqdirdə metro da işləyəcək. Deməli, tələbələrdən qeyrisi... ağır ifadə yazmaq istəmirəm, vətəndaş deyil? Gərək tələbə olsun ki, metro da işləsin? Deməli, metropoliten ziyanla işləmək istəmir. Tələbələrsiz sərnişin sıxlığı olmayacaq və gəlir də az olacaq deyə, fəaliyyətini bərpa etmir. Və ictimai maraqlara, vətəndaş hüquqlarına zidd gedir.

### Yerüstü nəqliyyatla yeraltı nəqliyyat paralel işləməlidir

**Nəqliyyat məsələləri üzrə mütəxəssis İlqar Hüseynli "Şərq"ə açıqlamasında ictimai nəqliyyatdakı problemlərin pandemiya dövründə daha qabarıq göründüyünü bildirdi:**

- BNA ictimai nəqliyyatdakı sıxlığın səbəblərindən biri kimi avtobusların say azlığını göstərir və bildirir ki, yeni alınmış avtobusların ölkəyə gətirilməsini və xəttə buraxılmasını gözləyirlər. Yeni avtobusların ölkəyə gətirilməsində isə məlum səbəblərdən yubanmalar var. Biz ötən dəfə İctimai Televiziyanın efirində də bu məsələyə toxunduq. Mən fikrimi bildirdim və dedim ki, sərnişin sıxlığının azaldılması üçün marşrut xətləri arasında koordinasiya olmalıdır. Günün pik saatları üçün çevik qrafik tərtib edilməli və buna riayət edilməlidir. Pik saatlarda hansı xətlərdə sərnişin seyrəkliyi müşahidə olunursa bu qısa zamanda müəyyənləşməli və həmin marşrut xətlərindəki avtobuslar sıxlıq müşahidə edilən xətlərə keçirilməlidir. Avtobuslar tələbatın az olduğu xətlərdən tələbatın çox olduğu xətlərə verilməlidir. Bunu sərnişinlər müşahidə edir. Dayanacaqda dayanan sərnişin görür ki, 10 dəqiqədi öz xətt avtobusunu gözləyir, o gəlmir, amma başqa xətt avtobusu içərisində 3-5 sərnişinlə ardarda gəlir. Deməli, avtobuslar xətlərə sərnişin sıxlığı nəzərə alınmaqla təyin edilməyib. İkincisi, avtobuslararası intervallar mütləq azaldılmalıdır. Avtobusların say azlığı bəhanə edilməməlidir. Çünki biz komendant saatı müddətində xətlərə kifayət qədər avtobus buraxıldığını gördük. O zaman mümkün idisə, indi niyə mümkün olmasın? Əsas problemlərdən biri metropolitenin fəaliyyətini bərpa etməməsidir. Biz hər zaman bildiririk ki, metropoliteni əvəz edə biləcək nəqliyyat vasitəsi yoxdur. Bir halda ki, SMS icazə ləğv edilir və iş yerləri açılır, sərnişin sıxlığının artacağı labüddür və bunu təkcə yerüstü nəqliyyatla aradan qaldırmaq mümkün deyil. Sərnişin sıxlığı risk faktorudur. Riskləri balanslaşdırmaq üçün də yeraltı nəqliyyatla yerüstü nəqliyyat paralel işləməlidir. Sərnişin sıxlığı hər iki nəqliyyat növü arasında paylaşılmalıdır. Metronun zərərlə işləməsi ehtimalını qəbul edirik. Lakin pandemiya daha təhlükəlidir. Hesab edirəm ki, dövlət metronun xərclərini bağlamalıdır. Bunun üçün metroya əlavə dotasiya ayırmaq olar. İş yerləri açılırsa, sərnişin sıxlığı qaçılmaz olacaq. Bunu yalnız metronun fəaliyyəti ilə balanslaşdırmaq mümkündür.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Gürcüstanda soydaşlarımız torpaqsız qalıb

## Tələsik verilən qərar uzun müddət qarşıdurmalara səbəb olacaq



Gürcüstanın Marneuli rayonunun azərbaycanlılar yaşayan İkinci Kosalı kəndində yerli sakinlərlə gürcü din xadimləri arasında mübahisə baş verib. Tərəflər arasında gərginliyin qarşısını almaq üçün kəndə polis əməkdaşları cəlb olunub.



Qarşıdurmaya son vaxtlar sakinlərin əkin sahələrindən istifadəsi ilə bağlı yaranan problem səbəb olub. Kənd sakinləri bildiriblər ki, əkin sahələrinin onlara aid olduğunu iddia edən din xadimləri icarə haqqı tələb edirlər. Onların sözlərinə görə, Gürcüstanın Meşə Məcəlləsinə edilən dəyişikliklərdən sonra bu iddialar intensiv hal alıb. Məlumat üçün deyək ki, yeni Meşə Məcəlləsinə əsasən, kilsə və məbədlərə ətrafda 20 hektaradək torpaq sahələrini satın alaraq öz mülkiyyətlərinə qatmaq hüququ verilib.

**Gürcüstanda yaşayan soydaşımız, "Qeyrət" Xalq Hərəkatının rəhbəri Əlibala Əsgərov "Şərq"ə deyib ki, qanuna edilən dəyişiklik əksər kənd sakinlərini çətin vəziyyətdə qoyub. Birlik rəhbəri xatırladıb ki, gürcülər bizim kilsələri öz adlarına çıxsalar da, əslində həmin ibadət yerləri qədim Alban məbədləridir:** "Əvvəl kilsəmizə sahib çıxıblar, indi də bizə məxsus məbədlərin ətrafındakı torpaqlara yiyə dururlar. Dövlətin belə bir qanun çıxartması təəssüf doğurur. Kilsələrin ətrafındakı 20 hektar ərazinin məbədlərin sərəncamına verilməsi ciddi problemə çevrilməkdədir. Əsasən bizim camaat bundan əziyyət çəkir. Bir çox kilsənin ətrafında əkinbiçinlə məşğul olanlar məhz azərbaycanlılardır. İkinci Kosalı kəndində din xadimləri hüquqi baxımdan özlərinin haqlı olduğunu iddia edirlər. İllərdir torpaqları əkib-becərən və oradan dolanan azərbaycanlılar isə özlərini haqlı görürlər".

**Ə.Əsgərov vurğulayıb ki, əslində mübahisəli torpaqlar kəndlilərin də deyil. Rəsmi şəkildə İqtisadiyyat nazirliyinin balansındadır:** "Yeni qanunla nazirliyin balansından kilsələrin sərəncamına verilib. İqtisadiyyat Nazirliyi torpaqların istifadəsindən icarə haqqı tələb etmirdi. Lakin kilsələr haqq istəyir. Düşünürəm ki, vaxtı ilə qanuna dəyişiklik edilərkən səhv yol verilib. Tələsik qərar idi və dəyişiklik zamanı yerlərdəki şərait öyrənilməyib. Uzun müddət qarşıdurmalara səbəb olacaq bir qərardır. Ona görə də dövlət bu məsələyə yenidən baxmalı və ən uyğun qərar çıxartmalıdır".

**İsmayıl Qocayev**

## Şahbaz Quliyevin anası vəfat etdi



**Ötən ilin dekabr ayında Ermənistanda girovluqdan azad edilən Şahbaz Quliyevin anası Sənəm Quliyeva vəfat edib.**

Qafqazinfo xəbər verir ki, Şahbaz Quliyev Dilqəm Əsgərovla birgə 2014-cü ildə Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər. Onlar 2020-ci il dekabrın 14-də əsir və girovların qarşılıqlı qaytarılması zamanı Bakıya gətiriliblər.

Bir müddət xəstəxanada müalicə aldıqdan sonra evlərinə buraxılmışdılar. Sosial şəbəkələrdə Şahbaz Quliyevin anası ilə görüşünü əks etdirən videogörüntülər də yayılmışdı.

## Şuşada Ombudsmanın regional mərkəzi açılacaq



**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) daha bir regional mərkəzi fəaliyyətə başlayacaq.**

Bunu "Report"un sorğusuna cavab olaraq Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı deyib.

Onun sözlərinə görə, Ombudsman Səbinə Əliyevanın bəyan etdiyi kimi, Müvəkkilin Qarabağ Regional Mərkəzinin fəaliyyətə başlaması nəzərdə tutulub.

Aparat rəhbəri bildirib ki, Mərkəz Şuşada yerləşəcək.

*Qeyd edək ki, hazırda Ombudsmanın 4 regional mərkəzi (Gəncə, Şəki, Quba və Cəlilabad) fəaliyyət göstərir.*



## Ayrı yaşamaq istəyirdi

### 3 uşağının gözü qarşısında arvadını qətlə yetirən şəxs danışıb

**Bakı Ağır Cinayətlər Məhkəməsində həyat yoldaşını qətlə yetirməkdə təqsirləndirilən Nicat Məmmədovun məhkəməsi yekunlaşıb. Onun törətdiyi hadisə böyük səs-küyə səbəb olmuşdu.**

O, Beynəlxalq Avtovağzalın yaxınlığında küçənin ortasında həyat yoldaşını 20-dən artıq bıçaq zərbəsi ilə qətlə yetirmişdi.

Baku.ws bildirir ki, hadisə 2019-cu ilin oktyabr ayının 7-də baş verib.

Uzun sürən ailə daxili münaqişələrdən sonra 34 yaşlı Nicat Məmmədov həyat yoldaşı ilə münasibətlərə son qoymaq üçün onu ata evinə aparmağa gəlib. O, atası ilə birlikdə 7 il birgə nikahda yaşadığı həyat yoldaşı, 3 uşaq anası 27 yaşlı Leyla Məmmədovanı avtomobili ilə anasıgilə aparan zaman yolda yenidən mübahisə ediblər.

Nicat Məmməd avtomobilin yük yerindən götürdüyü bıçaqla Leylaya hücum edib və uşaqlarının gözü qarşısında ona zərbələr endirib.

# Qarabağa pullar gələcək

## "Ziraat Banka"sı Şuşada filial açmaq üçün münasib yer axtarır



Türkiyənin ən böyük bankı olan "Ziraat Banka"sının Azərbaycandakı törəməsi - "Ziraat Bank Azerbaijan" ASC Qarabağda filial açmağa hazırlaşır. Bunu Bankın İdarə Heyətinin sədri Avni Dəmirçi bildirib. "Yeni filial üçün Şuşa şəhərində münasib yer axtarırıq.

Qarabağda filial açmaqla həm dövlət qurumlarının xətti ilə, həm də öz imkanlarımızla bu bölgədən olan sahibkarlara güzəştli kreditlər verməyi düşünürük", - deyə o qeyd edib. Bankir həmçinin rəhbərliyində təmsil olunduğu "Caspian Energy Club"un Türkiyədə nümayəndəliyinin açıldığını da bildirib: "Bu nümayəndəlik vasitəsi ilə biz Qarabağa Türkiyə və digər Qara dəniz hövzəsi ölkələrindən investisiya cəlb edəcəyik".

**Bütövlükdə xarici bankların Azərbaycan bank sektoruna gəlməsinin vacib olduğunu qeyd edən millət vəkili Vüqar Bayramov "Şərq"ə açıqlamasında bildirib ki, bu, ilk növbədə rəqabətin gücləndirilməsinə xidmət edir.** Deputat bəyan edib ki, bu, uzun müddət müzakirə edilən kredit faizlərinin aşağı salınması, bankların yerli məhsullara təklif etməsi baxımından vacib hesab olunur: "Çünki nəticədə imkan verir ki, banklar artıq rəqabət nəticəsində, eyni zamanda xaricilərin transfer etdiyi texnologiya səbəbindən yeni məhsullar və daha çox innovativ məhsullar təklif etsinlər. Bu da bank sektorunun inkişafı baxımından çox vacibdir. Bu baxımdan Türkiyənin aparıcı banklarından birinin Azərbaycanda filial açması ölkəmizin bank sektorunun inkişafı baxımından vacib hesab olunur. Bu, nəticə etibarilə həm də Türkiyə bank vasitəsilə yeni texnologiyanın Azərbaycana transferinə imkan verəcək. Nə qədər çox banklar açılırsa, bu, yaxın gələcəkdə kredit faizlərinin aşağı düşməsinə də gətirib çıxara bilər. Vətəndaşlarımız daha aşağı faizli kreditlərə cəlb edə bilərlər. Eyni zamanda əmanətlərin yerləşdirilməsi zamanı, artıq daha inanılmış banklarda əmanətlərinin yerləşdirilməsi həyata keçirilə bilər".




"Bu, nəticə etibarilə həm də Türkiyə bank vasitəsilə yeni texnologiyanın Azərbaycana transferinə imkan verəcək"

Parlamentari düşünür ki, Türkiyə bankının Azərbaycanda filial açması Azərbaycanın bank sektorunun inkişafı baxımından vacibdir: "Bu, nəticə etibarilə növbəti dövrlərdə banklarımızın inkişafına müsbət təsir göstərəcək".

**Aynurə Pənahqızı**

# Bir vaxtlar xəyal idi...

## İndi hansı marketə daxil olursan, 60 qəpiklik pomidorla rastlaşırsan

Yanvar ayında kiloqramı 50-60 qəpiyə pomidor illər öncə bir xəyaldı. Nədən bu xəyal hazırda gerçəyə dönüb? Satıcıların bazarı başına alan səslərində belə anons edilir: "Gəlin, pomidor 50 qəpik! Ruslar geri qaytarıb, gəl, apar!". Demək, ixrac edilən məhsul geri qaytarıldığından bazarda pomidor bolluğu yaranıb. Əksəriyyətimiz də "bəyənmirlər, bəyənməsinlər. Özümüz yeyərik" deyib pomidorları həvəslə, tələsik alırıq. Qışda ucuz pomidor lap göydəndüşmədi.



"Azərbaycan pomidoru bir çox ölkələrdə yetişdirilən pomidordan dəfələrlə keyfiyyətlidir"

Amma geri qaytarılan pomidorun həqiqətən də keyfiyyətsiz və hətta insan orqanizmi üçün zərərli ola biləcəyinə diqqət etmirik, bunu ciddiyə almırıq. Məsələ burasındadır ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi bazarlarda monitorinqlərə başlayıb, o cümlədən pomidorların keyfiyyətini yoxlanacağı qeyd edilir. Dekabrdan əhali ucuz pomidor "keyfi" yaşayır. AQTA indi yoxlamalara başlayır. Bəs pomidorları indiyədək həzm-rabedən keçirməyimiz necə olsun? Olmazdı ki, pomidorlar geri qaytarıldıqda daxili bazara buraxılmamış yoxlamadan keçirilsin?

Qeyd edək ki, Azərbaycan məhsulunu təkcə Rusiya deyil, Qazaxıstan da geri qaytarıb. Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarət Federal Xidməti Azərbaycandan idxal edilən pomidorlarda pomidor güvəsinə yoluxma aşkar edildiyini bildirib. Bununla əlaqədar olaraq, Rusiya Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə müvafiq bildirişlər göndərib.

Yoluxma faktları ilə əlaqədar Azərbaycanın 5 müəssisəsindən, "Aqro Favorit" MMC, "Binə Aqro" QSC, "Agroterm" MMC, "Xızı Aqropark" MMC və fiziki şəxs Məmmədov Vilayət Rüstəm oğlundan pomidor idxalı dayandırılıb.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi Qazaxıstan tərəfindən Azərbaycan pomidor məhsullarına tətbiq olunan məhdudiyyətlə bağlı açıqlama yayıb.

Qazaxıstan Respublikası tərəfindən Azərbaycandan pomidor məhsullarının idxalına tətbiq olunan məhdudiyyətlə bağlı isə bildirilir ki, ölkəyə idxal olunan pomidor məhsulunda qonur qırışıqlıq virusu aşkarlanıb. Bununla bağlı 2021-ci ilin 05-14 yanvar tarixlərində 17 bildiriş vərəqəsi daxil olub.

Hazırda aidiyyəti qurumlarla birgə Qazaxıstan Respublikasının müvafiq qurumu ilə bu istiqamətdə tədqiqatlar aparılır və nəticələrə bağlı ictimaiyyətə əlavə məlumat veriləcək.

Əlavə məlumat nə zaman veriləcək, bəlli deyil. Yediyimiz pomidorların bizə ziyanı nə ola bilər?

**Kənd təsərrüfatı mütəxəssisi, fəlsəfə elmləri doktoru Qadir Bayramlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan pomidoru dünyanın bir çox ölkələrində yetişdirilən pomidordan çox keyfiyyətlidir:**

- Rusiyanın Azərbaycan məhsulunu geri qaytarması subyektiv qərarardır. Bunun qida təhlükəsizliyi ilə heç bir əlaqəsi yoxdur. Vaxtilə Türkiyə ilə Rusiya arasında da belə hal yaşanmışdı. Ümumiyyətlə, biz belə halların zaman-zaman şahidi oluruq. Azərbaycan pomidoru bir çox ölkələrdə yetişdirilən pomidordan dəfələrlə keyfiyyətlidir. Azərbaycan məhsullarını Avropa Birliyi ölkələrinə ixrac etmək istəyirsə, keyfiyyət göstəricilərinə diqqət etməlidir. Rusiya Azərbaycan məhsulundan imtina etməklə öz bazarlarında qıtlıq yaradır. Rusiya özünü kənd təsərrüfatı məhsulları ilə təmin etmək iqtidarında deyil. Qısa müddət sonra bazarda tələbat yaranır, məcbur olub, yenidən ixrac amilinə üz tuturlar. Amma Azərbaycan kənd təsərrüfatı sahəsində fəaliyyəti elə qura bilər ki, həm ixracat üçün məhsul yetişdirər, həm də daxili bazarı təmin edər. Rusiyadan məhsul geri qaytarıldıqda gördük ki, daxili bazarda bolluq yarandı. Fermer üçün məhsulun geri qaytarılması zərərlidir, israfdır. İtkidir. Amma Azərbaycan yeni bazar axtarışları edə bilər. Məhsulun xarici bazarlarda qəbul edilməsi üçün də onun keyfiyyət göstəriciləri yüksək olmalıdır. Hazırda Avropa Birliyi ölkələri orqanik - ekoloji təmiz məhsullara üstünlük verir. Belə məhsulların qiyməti də baha olur. Azərbaycanın ekoloji təmiz məhsul yetişdirməsi üçün bütün imkanları var. Əsas gübrənin miqdarına diqqət edilməlidir ki, normadan artıq olmasın. Amma sizə bir şeyi deyim. Nə etsək də, istixana şəraitində yetişdirilən məhsulun dadı tarla məhsulunun dadını verməyəcək. Keyfiyyət də həmin keyfiyyət olmayacaq. İstixana şəraitində də məhsulu normala maksimum əməl etməklə yetişdirmək lazımdı. Fermerlər ona görə gübrənin miqdarını artıq edir ki, məhsul çox əldə edilsin və mümkün zərərlərini qarşılaya bilsin. Amma fermerə dəstək verilsə, ondan keyfiyyətli məhsul yetişdirmək tələb olunar, bazara da keyfiyyətli məhsul çıxarılar, ixrac məhsulu da keyfiyyətli olar.

**Q.Bayramlı qeyd etdi ki, yetişdirilən məhsulların keyfiyyətini yoxlayacaq xüsusi qurum olmalıdır:**

- Gübrə miqdarını nizamlamaq üçün fermerlərə vaxt verilməlidir. Məhsulları yoxlamadan keçirəcək xüsusi qurum olmalıdır, tərəfsiz, qərəzsiz, obyektiv müayinə aparılıb, dəqiq analiz edilməlidir. Həm də, bilirsiz, problem daha çox ölkəyə gətirilən məhsulların keyfiyyəti ilə bağlıdır. Bizim üçün hər şeydən əvvəl əhalinin sağlamlığıdır. AQTA-nın müəyyən fəaliyyəti var. Lakin yetərli deyil. Çalışmalıyıq ki, vətəndaşa sağlıqlı məhsul verək.

**Məlahət Rzayeva**

# İnsanların gəlirləri çox aşağı düşüb

## "Bu il daşınmaz əmlak bazarında vəziyyət daha kritik olacaq"



**Azərbaycanda koronavirus digər sahələrə olduğu kimi daşınmaz əmlak bazarını da "vurub". Bundan başqa, ekspertlər vurğulayır ki, 44 günlük Vətən müharibəsi də mənzil bazarına təsirsiz ötüşməyib və hazırda durğunluq hələ də yaşanır.**

Maraqlıdır, hazırda ölkəmizdə karantin rejiminin qismən yumşaldılması bu sahədə canlanma yarada bilərmi?

**2021-ci ildə mənzil bazarındakı durumu "Şərq"ə xarakterizə edən "MBA" konsaltinq və qiymətləndirmə şirkətinin baş direktoru, daşınmaz əmlak üzrə ekspert Nüsrət İbrahimov deyib ki, 2020-ci ilin göstəricilərinə əsasən bazarda aktivlik əvvəlki illərlə müqayisədə 40 faizə qədər azalıb:** Təklif azaldığı üçün istər-istəməz qiymətlərdə fərq görünür. 2020-ci ildə pandemiyanın yaratdığı təsirləri 2021-ci il ərzində görəcəyik.

Digər illərlə müqayisədə bu il daşınmaz əmlak bazarında vəziyyət daha kritik olacaq. Həm tikinti həcmində, həm təklif baxımından, həm də əhalinin alıcılıq indeksinin aşağı düşməsi qaçılmazdır.

Alıcıların gəlirlərində azalma ola bilər, satıcılar da ucuz qiymətə satmaq istəməyəcək.

Ona görə 2021-ci ildə qiymətlərin düşməsinin az ehtimalı var. Bazarda, o cümlədən tikintidə alqı-satqıda əhəmiyyətli dərəcədə azalmalar müşahidə ediləcək".

**Aygün Tahirqızı**

# Pandemiya yavaş-yavaş çəkilir

## Bundan sonra insanları ruh düşkünlüyündən çıxarmaq, ümidləndirmək lazımdır



Bir ilə yaxındır ki, insanlar özlərini sosial mühitdən təcrid edib. Hər gün evdə qalmaq insanları olduqca tənbəlləşdirib. Pandemiya səbəbindən uzun zamandır vaxtını evdə keçirən insanlar arasında hərəkətsizliyin yaratdığı stress, oturaq həyat tərzinə öyrəşmək, çox güman ki, gələcəkdə mənfi təsirlərini göstərəcək.



**Dinamik həyata öyrəşən insanların birdən-birə evə qapanmağa məcbur olmasının zərərləri haqqında "Şərq"ə danışan tibb elmləri doktoru, professor Adil Qeybulla deyib ki, pandemiya mənfi təsirlərini daha çox psixoloji cəhətdən zəif insanlarda büruzə verə bilər:**

"Bütün dünyanı cənginə alan COVİD-19 infeksiyasının qarşısını almaq məqsədilə evdə qalmağın vacib olması hamıya məlumdur. Həmin durum müəyyən bir müddət üçün nəzərdə tutulub. Buna görə də insanlar həm fiziki, həm də psixoloji cəhətdən özlərini toparlamağı bacarsın, evdə qalaraq fiziki aktivliklərini artırmağa çalışsınlar. Özlərini sosial mühitdən izolyasiya edən şəxslər evdə müxtəlif idman hərəkətləri ilə məşğul olaraq gümrah və sağlam qalmağa nail ola bilər. İçində olduğumuz vəziyyət insanların tənbəlləşməsinə əsas vermir. Bəzi insanlar var ki, onlar ruhdan tez düşürlər. Həmin şəxslərdə koronavirus infeksiyasının yayılması səbəbilə depressiv hallar baş qaldıra bilər. Çünki belə adamlar psixoloji cəhətdən olduqca zəifdir. Bu halda əhalinin psixoloji reabilitasiyasına ehtiyac yaranır".

**Professor pandemiyanın yaratdığı mənfi təsirlərin aradan qaldırılması üçün əhalinin maarifləndirilməsini tövsiyə edir:**

"Əlbəttə, pandemiya bir gün bitəcək. Digər ölkələrdə olduğu kimi ölkəmizdə də insanların pandemiyadan sonrakı dövrdə psixoloji durumunun yaxşılaşdırılması üçün əhali arasında maarifləndirmə və təbliğat işləri aparmaq lazımdır. Hazırkı vəziyyətin insanlarda ruh düşkünlüyünə səbəb olmaması üçün onları buna inandırmaq, ümidləndirmək lazımdır".

**Aytac Ali**

# "Xeyli sayda tələbələr var ki, təhsil haqqını ödəyə bilmir"



## Kamran Əsədov: "Əgər tələbələrin təhsil xərcləri obyektiv seçim əsasında müəyyən fondlar vasitəsi ilə ödənilərsə, Azərbaycanda ali təhsilli insanların sayı çoxalar"

*Azərbaycanda təhsil haqqını ödəməkdə çətinlik çəkən xeyli sayda tələbə var. Hazırda ölkənin ali təhsil müəssisələrində 182 min tələbə təhsil alır ki, onların da 167 mini bakalavr, 15 mini isə magistraturada təhsil alır. Bu gün ali təhsil alan tələbələrin hər 100 nəfərdən 56-sı dövlət sifarişli yerlərdə oxuyur. 33 faizdən çox tələbə isə ödənişli əsaslarla təhsilini davam etdirməyə çalışır.*

Ölkəmizdəki təhsil ocaqlarının ixtisaslar üzrə ortalama təhsil haqqı 2500 manat təşkil edir. Hətta bəzi ixtisaslar və fərqli universitetlər üzrə bu rəqəm 6500, 5000, 4500 manat təşkil edir ki, bu məbləğin də ödənilməsi hər insan üçün asan deyil. Məhz buna görədir ki, ötən illər ərzində 7 mindən çox şəxs təhsil haqqını ödəyə bilmədiyi üçün ali təhsilini yarımçıq qoyub, universitet həyatından imtina edib.

Qeyd edək ki, sözügedən məsələdən çıxış yolu kimi Təhsil Nazirliyi tələbələr üçün güzəştli kreditlər nəzərdə tutmuşdu.

Yanvarın 22-də keçirilən brifinq zamanı Təhsil naziri Emin Əmrullayev bu məsələyə bir daha toxunaraq təhsil kreditlərini iki qrup üzrə verməyi planlaşdırdıqlarını nəzərə çatdırıb. Nazirin sözlərinə görə, təhsil kreditinin birinci qrupda daha aşağı sosial vəziyyəti olan şəxslərə faizsiz, ikinci qrupda isə borcların bacarığa görə verilməsi nəzərdə tutulur.

Fəqət, nəzərə almaq lazımdır ki, bir ilə yaxın zaman kəsiyində koronavirus pandemiyası səbəbi ilə ölkədə əksər iş yerləri bağlanıb və insanların, o cümlədən, tələbələrin işləmə qabiliyyəti minimuma enib.

Belə olan halda ya tələbə, ya da onun valideyni həmin krediti bağlamaq iqtidarındadırmı? Və ya, tələbənin o qədər krediti götürüb hazırkı distant təhsil üçün ödəməsi nə dərəcə məntiqlidir?

İndiki pandemiya şəraiti ilə hər kəs kimi uzlaşmağa, eyni zamanda təhsil almağa can atan tələbə mövcud durumdan necə çıxmalıdır ki, həm təhsil haqqını kreditlə ödəyə bilsin, həm də həmin krediti işləyib ödəməyə imkanı olsun?

**Məsələ ilə bağlı bu və ya digər suallarımızı təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında cavablandırıb:**

"Bu gün universitetlərimizdə təhsil alan tələbələrin 67 faizi dövlət sifarişi əsasında, qalanları isə ödənişli əsaslarla təhsil alırlar. Bu da böyük saydır. Azərbaycanda təhsil haqları yüksəkdir və məlumdur ki, insanlar COVİD-19 virusu səbəbindən iş yerlərini itiriblər və onların gəlirləri ciddi şəkildə aşağı düşüb. Buna görə də ödənişli şəkildə oxuyan tələbələrin böyük əksəriyyəti təhsil haqqını ödəyə bilmir. Sözügedən məbləği ödəyə bilməyən tələbələr universitetdə semestr imtahanına buraxılmır və bu da onların növbəti problemlərinin yaranmasına gətirib çıxarır.

Hesab edirəm ki, ilk növbədə kreditlərin verilməsi məsələsinə iki aspektdən baxmalıyıq. Dünya təcrübəsinə görə, təhsil alan tələbələrə kreditlər faizsiz olaraq verilir. Eləcə də təhsil aldıqları müddət ərzində onlardan həmin kreditlər tələb olunmur. Həmin şəxslər yalnız işə başlayandan sonra kreditin məbləği onların maaşlarından hissə-hissə tutulur.

Bu əslində, yaxşı bir təcrübədir. Belə ki, təhsil alan şəxslərin işlə təmin edilməsi məcburi hala çevrilir. Bu halda ali təhsilini başa vurmuş şəxslər mütləq işləyirlər.

Bir məsələ də ondan ibarətdir ki, tələbələrə kredit verən qurumlar onların işləyə biləcəyi müvafiq iş yerləri təklif edirlər. Məlumdur ki, Azərbaycanda işə götürən şirkətlər işçilərinin hər hansı bir təhsil xərcini ödəmir. Amma dünyada iri şirkətlər, holdinqlər tələbələri özləri öncədən yetişdirirlər. Düşünürəm ki, bu təcrübəni Azərbaycanda da tətbiq etmək lazımdır ki, həmin tələbələr mütləq şəkildə kreditini ödəyənədək işləməyə məcbur olsunlar".

**Ekspert K.Əsədov dünyanın bəzi ölkələrində tələbələr üçün yaradılan şəraitlərin Azərbaycanda da mövcud olmasının zəruriliyini vurğulayıb:**

"Qeyd edim ki, Azərbaycanda və dünyada tələbələrə kreditlərin verilməsi bir neçə formatda həyata keçirilir. Onlardan birincisi faizsiz kreditlərdir ki, daha çox aztəminatlı və sosial təminatı zəif olan ailələrə verilir. Hansı məbləğdə borc verilirsə, həmin məbləğ də geri qaytarılır. İkincisi isə odur ki, 2 və 4 faizlə kredit verilir və onlar təhsillərini başa çatdırdıqdan sonra həmin vəsaiti ödəyirlər. Lakin hazırda bunlar Azərbaycanda tətbiq edilmir.

Düşünürəm ki, əgər tələbələrin təhsil xərcləri obyektiv seçim əsasında müəyyən fondlar vasitəsi ilə ödənilərsə, Azərbaycanda ali təhsilli insanların sayı çoxalar.

Təhsilli şəxslərin sayının çox olması onların kənarda qalmasına şərait yaratmır. Çünki indi çoxlu sayda tələbələr var ki, təhsil haqqını ödəyə bilmir və oxumaqdan kənarda qalır. Bununla da nəticədə ölkə əmək bacarığı olan ixtisaslı kadrını itirir.

Ona görə də zənn edirəm ki, kreditlərin verilməsi təhsilin əlçatanlığına və ali təhsilli insanların sayının artmasına zəmin yaradacaq".

**Ağarza Elçinoğlu**

## Sosial şəbəkələrdə narkotik qəbulunu təbliğ edən şəxs həbs edilib



**Sosial şəbəkələrdə profil yaradaraq narkotik vasitələrin qəbulunu təbliğ edən videolar yayan daha bir nəfər saxlanılıb.**

Daxili İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Baş Narkotiklərlə Mübarizə İdarəsinin Şirvan Şəhər Polis Şöbəsi əməkdaşları ilə birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində "Tik-Tok" sosial şəbəkəsində özünə məxsus səhifə yaradaraq narkotik vasitələrin təbliği ilə məşğul olan Coşqun Məmmədli tutulub. Həmin şəxs ifadəsində sosial şəbəkələrdə narkotik vasitələrin qəbulunu təbliğ etdiyini etiraf edib və əməlindən peşman olduğunu bildirib.

Saxlanılan C.Məmmədli barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilib. Şirvan şəhər Məhkəməsinin qərarı ilə o, 20 sutka inzibati qaydada həbs edilib.

## Azərbaycanda 344 nəqliyyat vasitəsi axtarışdadır



**Azərbaycanda axtarışda olan nəqliyyat vasitələrinin sayı və siyahısı məlum olub.**

"Report"un əldə etdiyi məlumata görə, 2021-ci ilin əvvəlinədək 344 nəqliyyat vasitəsi axtarışa verilib. Axtarışda olan nəqliyyat vasitələrinin içərisində motosikletlər, "VAZ" markalı maşınlarla yanaşı "Toyota Prado", "Land Rover Range", "Mercedes", "KIA", "Hyundai", "Jeep Grand" və "Porsche Cayenne" də var.

# "Filmin "Netflix" də yayımlanacağını biz də bilmirdik"

*2021-ci il Prezident İlham Əliyevin sərəncamına əsasən "Nizami ili" elan edilib. Xoş təsadüfdür ki, İndoneziya və Azərbaycanın ortaq layihəsi olan, Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının motivləri əsasında çəkilmiş "Layla Majnun" filmi də məhz bu il, 11 fevralda dünyada ən çox üz tutulan film və serial platforması "Netflix" də yayımlanacaq. Artıq ilk trelleri işıqlandırılan filmdə azərbaycanlı aktyorlar da yer alıb. Ölkəmizdə bir çox serial və filmlərdə rol alan gənc, amma istedadlı Murad İsmayılı da bu filmdə görə biləcəyik. O, filmlə bağlı təəssüratlarını "Şərq"ə danışıb:*



## Murad İsmayıl: "Çəkiliş meydançasında qəza baş verdiyi üçün mənim də bəzi səhnələrim təxirə salındı"

- "Kharizma Starvision Plus" şirkətinin çəkdiyi bu film İndoneziya və Azərbaycanın ortaq layihəsidir. Çəkilişlərin 70 faizi demək olar ki, Azərbaycanda, Bakı və Şamaxı şəhərlərinə həyata keçib. Mənim səhnələrim isə Bakıda, İçərişəhərdə, Qız qalasının yanında lentə alınıb.

Azərbaycanda kastinq işi ilə məşğul olan təşkilatçı Elsevər mənimlə əlaqə saxladı və onlara şəkillərimi atdığını dedi. Rejissor isə bəyənib və görüşmək istədiyini deyib. Daha sonra görüş oldu və məni bu filmə seçdilər. Mən də öyrənəndə ki, bu film Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının motivləri əsasında çəkiləcək, tərəddüd etmədən razılaşdım. Filmin rejissoru Monti Tiva çox məşhur bir rejissordur. Filmin ümumi çəkiliş müddəti 23 gün çəkdi. Açığı, filmin dünyanın ən yaxşı, keyfiyyətli film və serial platforması olan "Netflix"də yayımlanacağı nəzərdə tutulmamışdı. Sadəcə pandemiyaya görə filmin təqdimatı olmadı. Biz İndoneziyaya, filmin qala gecəsinə gedəcəkdik. Məlum olduğu kimi pandemiya səbəbi ilə "Netflix"də yayımlanası oldu.

Mən Məcnunun bacısının köhnə nişanlısı rolunu canlandırmışam. Xarakterimin, obrazımın adı Rəşad idi. Çəkiliş meydançasında pis bir hadisə baş verdi. Baş rolda Leylini və mənim nişanlımı oynayan qəhrəmanlar çəkiliş meydançasında qaçarkən pilləkənlərdən yıxıldılar. Xəsarət aldıqları üçün müalicə almağa başladılar. Bu səbəbdən mənim onlarla olan səhnələrim təxirə düşdü.

Filmdə bütün işçi heyətindən tutmuş aktyor heyətinə qədər hər kəsin çox güclü, peşəkarlıqla çalışması mənim diqqətimi çəkdi. İnanıram ki, yaxşı təcrübə qazandım. İnsana, aktyora çəkiliş meydançasında çox böyük diqqət göstərirlər, dəyər verirlər. Ümumiyyətlə, filmin rejissoru Monti Tiva bizə çox səmimi yanaşırdı. Onu da deyim ki, indoneziyalılar Azərbaycanı çox sevirlər, hamıya: böyüyə, kiçiyə çox böyük hörmətlə yanaşırlar. Mənim üçün yadda qalan xoş xatirələr oldu. Sadəcə, bayaq da dediyim kimi, qəza baş verdiyi üçün mənim bəzi səhnələrim ixtisar olundu. Qeyd edim ki, N. Gəncəvinin "Leyli və Məcnun" poemasının motivləri əsasında təçəkilmiş "Layla Majnun" filmini 11 fevraldan etibarən "Netflix" platformasında izləyə bilərsiz. Elsevərin, Turalın və Arzu xanımın adını qeyd etməsəm olmaz. Onlar bütün təşkilatçılığı öz üzərinə götürmüşdülər. Filmin əziyyətini çəkiblər. Sağ olsunlar.

**Sona Şıxəmirli**

# Gəncləşmək istəyənlər çobanyastığı içsin...



## Piylənmənin qarşısını alır, insanları formada saxlayır, əsəbləri sakitləşdirir

Çobanyastığı olduqca faydalı bitkidir. Yalnız xəstələndiyiniz zaman yox, bir adət halı kimi həftədə 5-6 dəfə çobanyastığı çayı içmək sağlamlıq üçün çox yararlıdır. Məsələn, axşam yatmazdan əvvəl 1 stəkan dəmləmə içmək həm əsəbləri sakitləşdirir, həm də yuxunu dərinləşdirir.

Çobanyastığı çiçəklərini axşamlar yatmazdan əvvəl süddə dəmləyib içmək də olar. Bu üsul daha çox Amerikada yayılıb. Statistik araşdırmalar göstərir ki, dünyada hər gün 1 milyondan çox insan çobanyastığı çayından istifadə edir.

**Tanınmış fitoterapevt Füzuli Hüseynov "Şərq"ə çobanyastığı çayının faydaları barədə danışıb:** "Mədə yarası kimi qeyri-spesifik xəstəliyin bəzən illərlə müalicə olunmasına baxmayaraq heç bir nəticə əldə olunmur. Belə xəstələr 3 ay gündə 4 dəfə çobanyastığı çayı içsələr faydalı olar. Çobanyastığı çiçəyinin spazmolitik effekti var.

Ona görə də köpdə, ishalda, bağırsaq spazmlarında gündə 3 dəfə içilir. Qastrit və mədə-bağırsaq yaralarında da gündə 3 dəfə yeməkdən əvvəl 1 stəkan çobanyastığı çayının qəbulu lazımdır".

*Fitoterapevt vurğulayıb ki, çobanyastığı çiçəyi çayından müntəzəm istifadə şəkərli diabetin inkişaf riskini azaldır, görmə itiliyini artırır:* "Çobanyastığını mütəmadi içənlər piylənmir, əksinə, həmişə formada qalırlar, əsəbləri gərgin olmur, dəriləri canlı qalır. Çünki çobanyastığı təbii antioksidant mənbəyidir və qocalmanı ləngidir. Çobanyastığı mensturasiya pozulmasından əziyyət çəkən və klimakterik dövrdə olan xanımlarımız üçün faydalı bir çaydır.

Ağız, boğaz yaralarında, faringitlərdə 1 xörək qaşığı çobanyastığı 1 stəkan suda dəmlənilir və gündə 3 dəfə qarqara edilir.

Uşaqlarda bağırsaq infeksiyaları zamanı 1 xörək qaşığı çobanyastığı 3 stəkan suda dəmlənir və bağırsaqlar yuyulur".

**Həkim frontit və haymorit zamanı da çobanyastığı çayının faydalı olduğunu söyləyib:** "2 xörək qaşığı çobanyastığı 1 stəkan suda vam odda qaynadılır, buxarı üzə verilir. Bu zaman baş dəsmalla örtülməli, otaq isti olmalıdır. Yaxşı olar ki, bu gecə yatmazdan əvvəl edilsin.

0.5 litrlik şüşə butulkanı yarıya qədər çobanyastığı ilə doldurub, üstünə zeytun yağı tam dolana qədər töküb ağzını bağlayaraq 40-60 dərəcəli sobanın və ya otaq isidicisinin üstündə 2 həftə saxlamaq lazımdır. Sonra süzüb, çobanyastığı yağı alınır. Bu yağ dərini parıldadır, təravətləndirir, yuyunmazdan 2-3 saat əvvəl bu yağla dəri masaj edildikdə təsiri daha yaxşı olur.

Oynaq ağrılarını azaldır, kiçik yaşlı uşaqlarda qarın ağrısı zamanı bel və qarın nahiyələrinin çobanyastığı yağı ilə ovuşdurulması sancıları kəsir. Saç tökülməsində, kəpəklənmələrdə yuyulmazdan 3 saat əvvəl saç dibləri çobanyastığı yağı ilə masaj edilir".

**Yeganə Bayramova**

# Azercell nümunəvi xidmət keyfiyyəti ilə daim irəlidə

## Mobil operator bütün xidmət kanalları üzrə müştəri məmnuniyyəti səviyyəsini qoruyub saxlamaqdadır

Azercell

Müasir texnologiyaların və biznes həllərin köməyilə abunəçilərinin gündəlik rabitə ehtiyaclarını rahat şəkildə qarşılamağı hədəfləyən ölkənin lider mobil operatoru "Azercell Telekom" hazırda bütün mümkün platformalar üzərindən xidmət spektrini davamlı şəkildə genişləndirir.

2020-ci ilin böyük hissəsini əhatə edən sosial təcrid şəraitinə baxmayaraq, Azercell-in müxtəlif xidmət kanalları müştəri müraciətlərini daha intensiv və operativ cavablama sistemini tətbiq edərək bu sahədə yüksək göstəricilərə nail oldu. Beləliklə, 2020-ci ildə Azercell-in Telefon Mərkəzinə ümumilikdə 3,950,821 zəng daxil olmuş, bunlardan 95%-i cavablandırılmış, onlayn müştəri xidmətləri üzərindən 449,337 sayda sorğu daxil olmuş və bunların 98%-i cavablandırılmış, Premium dəstək xəttinə daxil olmuş 119,602 müraciətin isə 96%-i cavablandırılmışdır. Qeyd edək ki, Telefon vasitəsilə daxil olmuş müraciətlərin ortalama cavablama müddəti təxminən 2 dəqiqə təşkil edir ki, bu da çox yüksək göstərici nümunəsidir. Azercell-in Telefon Mərkəzi üçün 2020-ci ildə müştəri məmnuniyyəti səviyyəsi 94% təşkil edib. Azercell şirkətinin il ərzində rəsmi Facebook, Instagram, Twitter, Youtube və Linkedin səhifələrindən toplam 134,350 müraciət daxil olaraq əməkdaşlar tərəfindən cavablandırılmışdır. Fərqli kanallar vasitəsilə daxil olan müraciətlər əsasən mobil internet xidmətləri, balans barədə məlumat, ödəmə, xidmətlərə qoşulma və s. ilə bağlı olub. Bundan əlavə, 2020-ci il ərzində şirkətin Ön Masa, Azercell Ekspres, Azercell Eksklüziv ofislərində, eləcə də Mobil Müştəri Xidmətləri vasitəsilə 949, 292 nəfər abunəçiyə üz-üzə xidmət göstərilib. Qeyd etmək yerinə düşər ki, 44 günlük Vətən Müharibəsi zamanı gücləndirilmiş və gərgin iş rejiminə baxmayaraq, Azercell əməkdaşlarının səyi nəticəsində bütün kanallar vasitəsilə xidmət keyfiyyəti ən yüksək səviyyədə saxlanıldı. Belə ki, ən son statistikaya əsasən onlayn kanallar vasitəsilə daxil olmuş müraciətlər 100% cavablama göstəricisinə qədər yüksəlib. Hətta, COVID-19 pandemiyası ilə əlaqədar tətbiq olunan uzunmüddətli sərt karantin rejimində Azercell Müştəri Xidmətləri fasiləsiz olaraq onlayn şəkildə fəaliyyət göstərib, yaşı 65-dən yuxarı olan abunəçilərə isə Səyyar Müştəri Xidmətləri tərəfindən pulsuz xidmət təqdim olunub. Şirkət sosial şəbəkələr üzrə müştərilərə göstərilən xidmət səviyyəsi, müraciətlərin cavablandırılması üzrə dəfələrlə beynəlxalq sertifikatlara layiq görülüb. Azercell-in istifadəyə verdiyi "Kabinetim" tətbiqi isə müştəri məmnuniyyətinin artırılması, şikayətlərin dərhal həlli istiqamətində atılmış böyük addımlardan biri olub. Azercell şirkəti ölkədə qurduğu Müştəri Xidmətləri sisteminin ən yüksək dünya standartlarına uyğun olduğunun nümunəsi kimi ISO 18295:2017 və ISO 10002:2018 beynəlxalq sertifikatlaşma standartlarına da layiq görülüb. ISO 18295:2017 bilavasitə Müştərilərlə Əlaqə Mərkəzlərinin İdarə edilməsi Sahəsində Beynəlxalq Sertifikat, ISO 10002:2018 isə Keyfiyyətin İdarə Olunması /Müştəri Məmnuniyyəti /Müəssisələrdə Şikayətlərə Baxılmasına dair təlimatlar standartına uyğunluq sertifikatlardır. "Azercell Telekom" MMC bundan sonra da müştəri xidmətləri və müştəri məmnuniyyətinin ən yüksək standartlara uyğunluğu və abunəçi sorğularının çevik və rahat şəkildə cavablandırılması istiqamətində fəaliyyətini davam etdirəcək.

## Ramin Bayramlı: "Yaxın 2 həftədə bütün tibb işçiləri koronavirusa qarşı vaksinasiyadan keçəcək"



**"Yaxın 2 həftədə bütün tibb işçiləri koronavirusa qarşı vaksinasiyadan keçəcək".**

APA-nın məlumatına görə, bunu TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı Türkiyənin "Anadolu" agentliyinə müsahibəsində deyib. O bildirib ki, bundan sonra isə 65 yaş üzərində olan şəxslər vaksinasiya strategiyasına əsasən peyvənd olunacaqlar: "Daha sonra risk qrupuna daxil olan şəxslər başda olmaqla digər şəxslər vaksinasiyadan keçəcək. Sonrakı mərhələdə 50 yaşdan yuxarı şəxslərin peyvəndlənməsini hədəfləyirik. Bununla da xəstəxanada yatanların sayını azaltmaq məqsədimizdir. Çünki xəstəxanada yatanların 70-75 faizi 50 yaşdan yuxarı insanlardır. Bundan sonra isə daha aşağı yaş qrupları üçün peyvənd istehsalçıları ilə həm ikitərəfli, həm də COVAX təsisatı ilə əməkdaşlığımız nəticəsində müzakirələrimiz davam etdiriləcək və ölkəmizə vaksinlər gətiriləcək".

## Daha bir vəkil koronavirusdan vəfat etdi



**Vəkillər Kollegiyasının daha bir üzvü dünyasını dəyişib.**

Vəkil Elbrus Mehralıyev 61 yaşında vəfat edib. Onun səhhətində problemlər varmış.

*E.Mehralıyev 22 saylı Vəkil Bürosunun üzvü olub.*

## Bill Qeyts peyvənd olundu



**"Microsoft" şirkətinin banilərindən biri, iş adamı və xeyriyyəçi Bill Qeyts koronavirusdan peyvənd edilib.**

"Medicina.az" xəbər verir ki, bu barədə o, özünün tvitterdəki səhifəsində məlumat yayıb. O, birinci dozanı aldığını qeyd edib və COVID-19 preparatının yaradıcılarına təşəkkür edib.

"Üstünlüklərdən biri budur ki, sənin 65 yaşın var, mən COVID-19-a qarşı vaksin hüququna malikəm. Bu həftə birinci dozanı aldım və özümü əla hiss edirəm. Bütün alimlərə, sınaqların iştirakçılarına, nizamlayıcı idarələrə və öndə olan həkimlərə, hansılar ki, bizi bu ana gətirib çıxardılar - təşəkkürlər", - Qeyts tvitterdə yazıb.

Milyarder məhz hansı vaksinin dozasını aldığını açıqlamayıb.

### Elan

Abşeron rayonu, Novxanı kəndi, ev 41-də yaşayan Əlizadə Ulduz Teyyub qızının adına verilmiş evin kupçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 143



## Moskvada uçan taksinin sınağı keçirilir

**Moskvadakı Lujniki Olimpiya Kompleksində uçan taksi sınaqdan keçirilir.**

Unikal.org bildirir ki, dron "Hover" startapı tərəfindən hazırlanıb. Avtomobil 100 kilometrə qədər uçur, havaya 150 metr qalxır və adi park yerində eniş edir. Dron iki nəfər üçün nəzərdə tutulub, 300 kq-a qədər yükü havaya qaldırır və 200 km / saat sürət hərəkət edə bilir.

*Qeyd edək ki, bənzər sınaqlar hazırda Sinqapur, Dubay, Hong Kong, Seul və Barselonada da aparılır.*

## Bir ilk yaşandı

### 10 ildən sonra dünya işığını gördü



**İsraildə 10 ildir hər iki gözü görmə əngəlli olan 78 yaşlı kişiyə yenidən dünya işığını görmək nəsib olub.**

O, "CorNeat" startapı tərəfindən hazırlanan süni kornea *(gözün rəngli qisminin önündəki şəffaf saata bənzər hissə)* implantının köçürülməsindən sonra görmə qabiliyyətini bərpa edib.(publika.az)

Proseduru Rabin Tibb Mərkəzinin *(əvvəlki Beilinson Xəstəxanası)* Oftalmologiya şöbəsinin müdiri, professor Irit Bahar həyata keçirib.

## 70 il evli olan cütlük bir neçə dəqiqə fərqlə öldü

### Onların 5 övladı, 13 nəvəsi və 28 nəticəsi var



**70 ildir evli olan amerikalı cütlük Dik və Şerli Muk həyata gözlərini yumub.**

Koronavirusa yoluxan 87 və 89 yaşlı cütlük bir neçə dəqiqə fərqlə vəfat edib.

Qeyd edək ki, Ohayoda yaşayan Muk cütlüyü ötən ilin dekabr ayının sonunda evliliklərinin 70-ci ildönümünü qeyd edib.(publika.az)

Onların 5 övladı, 13 nəvəsi və 28 nəticəsi var.

Con Hopkins Universitetinin məlumatına görə, ABŞ-da epidemiyanın başlanğıcından bəri 24,2 milyondan çox insan koronavirusa yoluxub, 401 mindən çox insan həyatını itirib.

## Çəkiliş meydanında panik atak keçirib



**Aktrisa Dakota Conson maraqlı açıqlaması ilə diqqət çəkib.**

Axşam.az xarici KİV-nə istinadən bildirir ki, verilişlərdən birinə qonaq olan Dakota "The friend" filminin çəkiliş meydanında panik atak keçirdiyini deyib:

"Teatrda mahnı ifa edəcəkdim. Həmin an məni qorxu və stress bürüdü. Panik atak keçirdiyimi anladım. Böyük kütlənin qarşısında mahnı ifa etmək mənim üçün gözlənilməz və çox həyəcanverici idi. Həmin vaxt kamera arxa tərəfdən çəkiliş edirdi. Həyəcandan çevrilib aktyor heyətinə baxa bilmirdim".



# Hər kəsə qısqanır



### Bir an olsun belə, körpənin yanından ayrılmır



**Bursada Didem və Kurtuluş Güngör ailəsi illərdir ki, it saxlayır.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, heyvansevər ailənin 3 ay bundan öncə Elif adında körpələri dünyaya gəlib. Evin sevimli iti Aslan ailənin yeni üzvü Efeni hər kəsdən qısqanır. Bir an olsun belə körpənin yanından ayrılmayan balaca köpək körpənin yanına gələn və onu sevməyə çalışan insanlara mane olur. Həmin an o körpənin yanına gedərək onun üzünü yalayar və heç kimi onu əzizləməsinə imkan vermir. Elifin valideyni Didem Güngör evlərində bundan başqa daha iki it saxladığını deyib: "Aslan 3 ay əvvəl dünyaya gələn körpəmi çox sevir. Biz də daxil olmaqla hər kəsdən qısqanır. Efeyə gedib onu sevirəm deyəndə o, dərhal onu sevməyə başlayır. Bu vəziyyət bizim çox xoşumuza gəlir. Hətta Elif ağladığı zaman hürərək bizə məlumat verir".

**Hakan Çamur isə bildirib ki, ümumiyyətlə, itlər uşaqlarla çox yaxşı münasibət qururlar:** "Onlar çox yaxşı bir dostdurlar. Hər bir ailə mütləq bir ev heyvanı götürüb saxlamalıdır. Heyvanlar ilk növbədə uşaqların inkişafına böyük bir töhfə verir. İtlər isə heyvanlar arasında ən yaxşı dostdur".

**Aynurə**



### "90 gün içində boşanacaqlar" dedilər



# ABŞ göz yaşlarına inanmadı

**Bu həftə dünyanın həm gözü, həm də qulağı ABŞ-da idi.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, yeni Prezident Co Bayden və onun müavini Kamala Harris televiziyada canlı yayımda and içsələr də, ancaq dünya keçmiş prezident Donald Tramp və ailəsi haqqında hələ də danışmağa davam edir. ABŞ-ın tarixi seçkilərindən bir neçə həftə sonra nəticəni qəbul etməkdən imtina edən Donald Tramp nəhayət ki, Ağ Evi tərk edib. Tramp və birinci xanımın Ağ Evdən çıxışı beynəlxalq televiziya tərəfindən canlı yayımlanıb. Donald jurnalistlərə tez açıqlamalar verərək, prezident təyyarəsi ilə "Andrevs" hava limanında vida mərasiminə yollanıb. Burada vida nitqini söyləyən Tramp: "Bu, hələlik sadəcə bir vidadır, ancaq bir şəkildə geri dönəcəyəm. Yaxşı bir həyat yaşayın, tezliklə görüşərik" deyib. Bundan sonra onun tərəfdarları mobil telefonla onun şəklini çəkib. Həmin an Trampın qızı İvankanın hönkürüb ağlaması da gündəmi zəbt edib. Ancaq əsl bomba keçmiş birinci xanım Melaniyadan gəlib. Melaniyanın soyuq davranışları onların boşanmağa yaxın olduqlarını göstərib. Hətta bir "Twitter" istifadəçisi onların 90 gün içərisində boşanacaqlarını iddia edib.

**Aynurə**